

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 39 (679) ▪ 11 oktyabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezident seçkilərinin ilkin nəticələri ilə bağlı xalqa müraciəti

- Əziz həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Mənə böyük etimad göstərmiş, yenidən prezident vəzifəsinə seçmiş doğma xalqıma minnətdaram. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm, daim Azərbaycanın dövlət maraqlarını müdafiə edəcəyəm.

Azərbaycan xalqı bu seçkilərdə azad, şəffaf şəkildə öz iradəsini ortaya qoydu. Azərbaycanda keçirilən prezident seçkiləri demokratiyanın təntənəsidir. Azərbaycanda bütün azadlıqlar mövcuddur. Azərbaycan demokratik dövlət kimi bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bu seçkilərin azad, şəffaf şəkildə keçirilməsi demokratiyaya doğru atılan növbəti ciddi addımdır. Azərbaycanda bütün azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, siyasi azadlıqlar, vicdan azadlığı təmin edilir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayırlar. Bu, bizim böyük üstünlüyümüzdür, böyük dəyərimizdir. Təsadüfi deyildir ki, Azərbaycan bu gün dünyada milli və dini dözümlülük məsələlərində çox önəmli ölkəyə çevrilmişdir. Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biridir.

Eyni zamanda, ölkəmizdə bütün proseslər müsbət istiqamətdə getmişdir. Azərbaycan xalqı bu seçkilərdə son on il ərzində görülən işlərə öz yüksək qiymətini vermişdir. On il ərzində dövlətçiliyimizin əsasları möhkəmləndi. Bu gün Azərbaycan dövləti güclü, müstəqil siyasət aparan bir dövlətdir. Bizim güclü ideoloji əsaslarımız vardır. Azərbaycançılıq məfkurəsi bizim ideoloji dayağımızdır.

Azərbaycanda bütün istiqamətlərdə inkişaf, tərəqqi özünü göstərməkdədir. Biz beynəlxalq məsələlərin həllində bu gün dünya miqyasında çox önəmli ölkəyə çevrilmişik. Azərbaycan dünya birliyinin mütləq əksəriyyətinin dəstəyi ilə iki il bundan əvvəl dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur və hazırda bu təşkilata sədrlik edir.

Azərbaycanda iqtisadi sahədə çox böyük uğurlar əldə edilmişdir. Deyə bilərəm ki, son on il ərzində iqtisadi islahatlarla bağlı atılan addımlar və əldə edilmiş nəticələr dünya miqyasında ən ciddi nəticələrdir. Təsadüfi deyildir ki, bu nəticələr insanların gündəlik həyatında da öz əksini tapmaqdadır.

Son on il ərzində iqtisadiyyatımız 3,4 dəfə artmış, yoxsulluğun səviyyəsi isə təxminən on dəfə azalmışdır. Bu, ölkədə aparılan ciddi iqtisadi və sosial siyasətin nəticəsidir. Bu siyasətin nəticəsində Azərbaycan öz iqtisadi potensialını böyük dərəcədə möhkəmləndirə bimişdir.

İqtisadi güc bizə imkan verir ki, öz maraqlarımızı beynəlxalq arenada da lazımi səviyyədə müdafiə edək. Azərbaycan bu gün nəinki regional, dünya problemlərinin həllində də öz rolunu oynayır və getdikcə bizim rolumuz daha da artacaqdır.

Azərbaycanda bütün istiqamətlər üzrə konkret proqramlar vardır. Böyük infrastruktur layihələri icra edilir, şəhərlərimiz abadlaşır, gözəlləşir, insanların yaşayış səviyyəsi yaxşılaşır. Dünyanın aparıcı iqtisadi qurumlarının reytinqlərinə görə, hətta dünyanı bürümüş iqtisadi və maliyyə böhranı zamanı Azərbaycan uğurla inkişaf edir. Bizim iqtisadiyyatımız son on il ərzində dünya miqyasında 40 ən rəqabətqabiliyyətli iqtisadiyyatların arasına daxil edilibdir. Bizim bütün təşəbbüslərimiz regional əməkdaşlığa hesablanıbdır. Azərbaycanda bütün sahələr üzrə inkişaf, tərəqqi vardır. Biz bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan artıq kosmik dövlətə çevrilibdir.

Bütün bu nailiyyətlər Azərbaycan xalqının istedadı, zəhməti hesabına mümkün olmuşdur. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və bütün təşəbbüslərimizin xalq tərəfindən dəstəklənməsi, hesab edirəm ki, uğurlarımızın əsas şərtidir, əsas səbəbidir.



Azərbaycanda aparılan enerji siyasəti nəinki region üçün, dünya üçün çox böyük əhəmiyyətə malik olan bir məsələdir. Bu gün Azərbaycan müasir, müstəqil dövlət kimi dünyada öz rolunu oynayır və bizim imkanlarımız getdikcə daha da genişlənəcəkdir.

Bu gün bölgədə gedən proseslərdə bizim təsir imkanlarımız kifayət qədər genişdir. Azərbaycanın razılığı olmadan bölgədə heç bir təşəbbüs - istər siyasi, istər iqtisadi mümkün deyildir. O təşəbbüsün gələcəyi olmayacaqdır.

Bütün bunlar görülən işlərin nəticəsidir. Bütün bunlar müstəqil Azərbaycanın uğurlarıdır. Müstəqilliyimizin nə qədər böyük dəyər olduğunu Azərbaycan xalqı gündəlik həyatda görür. Biz azadıq, biz müstəqilik. Bizim taleyimiz öz əlimizdədir. Bu seçkilərdə mənə verilən səslər, hesab edirəm ki, müstəqilliyə, azadlığa, xoşbəxt gələcəyə verilən səslərdir.

Mən çox fəxr edirəm ki, son illər ərzində bütün təşəbbüslərim reallığa çevrilibdir. On il bundan əvvəl - 2003-cü ildə xalqa elan etmişdim və bəyan etmişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Son on il ərzində bu siyasətə sadiq qalaraq Azərbaycanın inkişafı, Azərbaycanın tərəqqisi üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz dönməzdir, sarsılmazdır.

Bu illər ərzində müstəqil siyasətimiz istənilən sahədə özünü göstərmişdir. Biz öz milli maraqlarımızı lazımi səviyyədə müdafiə edə bilərik, müdafiə edirik, edəcəyik. Mənim üçün Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqları ən birinci yerdədir. Bu maraqların müdafiə edilməsi üçün xalqla iqtidar arasındakı birlik əsas şərtdir. Mən bütün addımlarımda xalqın dəstəyini hiss edirdim, bu dəstəyə güvənirdim. Əgər bu dəstək olmasaydı, biz heç bir işi görə bilməzdik. Məhz xalqla iqtidar arasındakı birlik, vəhdət Azərbaycanı fərqləndirən amillərdən biridir.

Bu seçkilərdə böyük səs çoxluğu ilə mənə göstərilən etimad həm görülən işlərə verilən qiymətdir, həm də Azərbaycanın gələcək inkişafı ilə bağlı olan, xalq tərəfindən ifadə edilən niyyətdir, tələbdir.

Biz gələcəyə çox böyük ümidlərlə, böyük nikbinliklə baxırıq. On ilin təcrübəsi bu inamı daha da artırır. Çünki son 10 il ərzində biz istənilən sahədə çox böyük uğurlara imza atdıq. Bu gün Azərbaycan güclü, inkişafda olan, müstəqil siyasət aparan dövlət kimi gələcəyə də çox böyük nikbinliklə baxır. Belə gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər əsaslar vardır.

Növbəti illərlə bağlı bizim siyasətimiz açıqdır, aydındır. Mən dəfələrlə müxtəlif tədbirlərdə Azərbaycanın gələcəyi ilə bağlı öz fikirlərimi xalqla bölüşmüşəm. Görülən işlər haqqında xalqa daim hesabat verirəm. Bu gün də bildirmək istəyirəm ki, Azərbaycan bundan sonra da inamlı inkişaf yolu ilə gedəcəkdir. Azərbaycan beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcəkdir və bütün beynəlxalq təşəbbüslər Azərbaycan xalqının maraqlarını müdafiə edəcəkdir.

Biz Azərbaycanda demokratiyanın inkişafı ilə bağlı bundan sonra da ardıcıl siyasət aparacağıq. Müasir dövlət quruculuğu prosesi bundan sonra da davam etdiriləcəkdir. Növbəti illərdə xoşagəlməz halların aradan qaldırılması üçün, xüsusilə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılacaqdır. Bu mübarizənin gözəl nəticələri vardır. Xalq tərəfindən bizim siyasətimiz, qətiyyətimiz, addımlarımız dəstəklənir. Sahibkarlığın inkişafı ilə bağlı siyasətimiz davam etdiriləcəkdir. Bütün istiqamətlər - yeni iş yerlərinin açılması, yoxsulluğun, işsizliyin azaldılması, idxalın əvəz olunması üzrə bizim konkret proqramlarımız vardır.

Sosial siyasətlə bağlı bu il və əvvəlki illərdə atılmış addımlar onu göstərir ki, bu məsələlərə nə qədər böyük əhəmiyyət göstərilir. Mən dəfələrlə bəyan etmişəm və bunu həyat və atılan addımlar da təsdiqləyir ki, Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır.

Növbəti illərdə biz bütün bu istiqamətlər - iqtisadi islahatlar, sosial siyasət, enerji siyasəti, xarici siyasət üzrə ancaq və ancaq irəliyə gedəcəyik. Biz daha da güclü Azərbaycan, daha da güclü dövlət quracağıq ki, bu dövlətdə hər bir vətəndaş özünü rahat hiss etsin, sülh, əmin-amanlıq şəraitində yaşasın. Son on il ərzində sabitliyin və ictimai asayişin qorunması bax bu reallıqları şərtləndirdi. Azərbaycanda insanlar təhlükəsizlik şəraitində yaşayır və bu, bizi fərqləndirən cəhətlərdən biridir.

Bir sözlə, əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Gələcək inkişafımızla bağlı məndə və əminəm ki, sizdə heç bir şübhə yoxdur. Azərbaycan bundan sonra da inamlı inkişaf dövrünü yaşayacaqdır. Azərbaycan dövləti və mən prezident kimi Azərbaycanın milli maraqlarını müdafiə edəcəyəm, xalqın rifahını təmin edəcəyəm.

Mən bir daha sizə son on il ərzində mənə göstərdiyiniz böyük dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha sizi əmin etmək istəyirəm ki, var gücümlə doğma xalqımızın rifahı, dövlətimizin möhkəmləndirilməsi üçün çalışacağam. Biz birlikdə hələ böyük qələbələrə imza atacağıq.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

# İlham Əliyev seçicilərin 84,59 faizinin səsini qazanmışdır

## *Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezident seçkilərinin ilkin nəticələrini açıqlamışdır*

*Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov oktyabrın 9-da keçirilmiş prezident seçkilərinin ilkin nəticələrini açıqlamışdır.*

MSK sədri oktyabrın 10-da seçkilərin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında demişdir: «Səsvermə oktyabrın 9-da səhər saat 8:00-da başlanmış və saat 19:00-da başa çatmışdır. Artıq 125 seçki dairəsindəki 5.492 məntəqədən 5.466-nın protokolları MSK-ya daxil olmuşdur. Məcburi köçkünlərin məskunlaşdığı rayonlarda isə 26 məntəqədən isə protokollar hələ də MSK-ya daxil olmamışdır. Daxil olan protokolların nəticələrinə görə, yüksək seçici fəallığı ilə keçən seçkilərdə səsvermə hüququ olan 5 milyon 164 min 345 seçicinin 3 milyon 723 min 544-ü və yaxud 72,1 faizi iştirak etmişdir. Mütəşəkkilliklə keçən prosesi çox nüfuzlu qurumların müşahidəçiləri izləmişdir. Səsvermə günü MSK-ya heç bir şikayət daxil olmamışdır. Prezident seçkiləri yüksək səviyyədə keçirilmişdir».

Səsvermənin ilkin nəticələrini açıqlayan MSK sədri demişdir ki, ilkin nəticələrə görə, prezidentliyə namizəd, hazırkı dövlət başçısı Əliyev İlham Heydər oğlu ölkə üzrə seçicilərin 84,59 faizinin səsini qazanmışdır.

Səsvermənin ilkin nəticələri aşağıdakı kimidir:

**Əliyev İlham Heydər oğlu** - lehinə 3 milyon 118 min 287 səs verilmiş və 84,59 faizlə birinci yerdədir.

**Həsənli Cəmil Poladxan oğlu** - lehinə 204 min 209 səs verilmiş və 5,54 faizlə ikinci yerdədir.

**Ağazadə İqbal Fehruz oğlu** - lehinə 87 min 842 səs verilmiş və 2,38 faizlə üçüncü yerdədir.

**Həsənquliyev Qüdrət Müzəffər oğlu** - lehinə 73 min 136 səs verilmiş və 1,98 faizlə dördüncü yerdədir.

**Oruc Zahid Məhərrəm oğlu** - lehinə 53 min 352 səs verilmiş və 1,45 faizlə beşinci yerdədir.

**İsmayılov İlyas Abbas oğlu** - lehinə 39 min 319 səs verilmiş və 1,07 faizlə altıncı yerdədir.

**Əlizadə Araz Məmməd-Mübariz oğlu** - lehinə 31 min 753 səs verilmiş və 0,86 faizlə yeddinci yerdədir.

**Quliyev Fərəc İbrahim oğlu** - lehinə 31 min 570 səs verilmiş və 0,86 faizlə səkkizinci yerdədir.

**Hacıyev Hafiz Ələmdar oğlu** - lehinə 24 min 254 səs verilmiş və 0,66 faizlə doqquzuncu yerdədir.

**Məmmədov Sərdar Calal oğlu** - lehinə 22 min 568 səs verilmiş və 0,61 faizlə onuncu yerdədir.

Beləliklə, Əliyev İlham Heydər oğlu çox böyük səs fərqi ilə növbəti beş il Azərbaycan Respublikasının Prezidenti seçilmək üçün liderlik edir.

MSK sədri seçkilərdəki qələbəsinə görə Prezident İlham Əliyevi təbrik etmişdir. Bildirmişdir ki, artıq digər namizədlər də parlaq qələbəsinə görə İlham Əliyevi təbrik etmişlər.

M.Pənahov demişdir ki, səslərin hesablanması davam edir. Səslər tam hesablandıqdan sonra Mərkəzi Seçki Komissiyası maksimum 10 gün müddətində öz protokollarını təsdiqlənmək üçün Konstitusiya Məhkəməsinə təqdim edəcəkdir. Konstitusiya Məhkəməsi isə ən geci 4 iş günü ərzində protokollara münasibət bildirəcəkdir.

MSK sədri seçkilərdəki mütəşəkkil iştirakına görə Azərbaycan xalqına, eyni zamanda, müşahidəçilərə və KİV nümayəndələrinə minnətdarlığını bildirmişdir.

2 Prezident İlham Əliyev: Bundan sonra da Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir

3 «Vergi partnyorluğu sazişlərinin tətbiqi vergi inzibatçılığının səmərəliliyini artıracaq»

4 Əsas iqtisadi rayonların regional inkişaf planları hazırlanıb

5 «İnsan İnkişafı İndeksi»ndə Azərbaycanın mövqeyi yüksəlib

# Azərbaycanda prezident seçkiləri dinc, azad və ədalətli şəraitdə keçirilmişdir

Oktyabrın 10-da Müstəqil Mətbuat Mərkəzində Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin müşahidə missiyasının üzvü Fiorello Provera oktyabrın 9-da Azərbaycanda keçirilmiş prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirmişdir.

AzərTAc xəbər verir ki, Azərbaycana bir neçə dəfə səfər etdiyini bildirən F.Provera hər dəfə bu ölkəyə gələndə sürətli inkişafın şahidi olduğunu vurğulamışdır.

Avropa Parlamentinin müşahidə missiyasının üzvü seçki prosesində 18 seçki məntəqəsində olduğunu qeyd etmişdir. Bildirmişdir ki, seçki prosesi dinc, azad və ədalətli şəraitdə keçirilmiş, hansısa qanun pozuntusu qeydə alınmamışdır.

Bəzi beynəlxalq təşkilatların Azərbaycan haqqında yaydığı tənqidi fikirlərə münasibət bildirən F.Provera vurğulamışdır ki, bəzi insanlar öz ölkələrində olmayan demokratiyanı başqa ölkələrdə görmək istəyirlər və digər ölkələrin daxili işlərinə müdaxilə edirlər. Biz bu prosesdə hakim kimi deyil, dost kimi iştirak etməli, Azərbaycanın Avropaya inteqrasiyasını addım-addım dəstəkləməliyik. Çünki Azərbaycan enerji və geosiyasi mövqeyi baxımından Avropa üçün çox mühüm bir ölkədir.

F.Provera qeyd etmişdir ki, Azərbaycan ərazilərinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur və 1 milyondan çox qaçqın və məcburi köçkün vardır. Beynəlxalq ictimaiyyətin diqqətini bura yönəltmək daha məqsədəuyğundur.

# Natali Qule: *Bu seçkilər Azərbaycanın ötən 10 ildə keçdiyi inkişafı göstərir və yüksək səviyyədə təşkil olunmuşdur*

*Fransalı senatorlar düşünürlər ki, bu seçkilər Azərbaycanın ötən 10 ildə keçdiyi inkişafı göstərir və yüksək səviyyədə təşkil olunmuşdur.*

AzərTAc xəbər verir ki, bu sözləri oktyabrın 9-da keçirilən prezident seçkilərinin yekununa həsr olunmuş mətbuat konfransında Fransa Senatının müşahidəçilər missiyasının rəhbəri Natali Qule demişdir.

Müşahidə missiyalarının beş senatordan ibarət olduğunu bildirən N.Qule qeyd etmişdir ki, qrupumuzda müxtəlif siyasi partiyalar təmsil olunur. Biz seçkiləri Quba rayonunda müşahidə etmişik. Müşahidələrimizə əsasən hər hansı bir qanun pozuntusu ilə rastlaşmadıq. Təxminən 10 il bundan əvvəl mən İlham Əliyevin ilk prezident seçkilərinə qatıldığı vaxt prosesi izləmişdim. Ona görə də deyə bilərəm ki, artıq ölkənizi yaxşı tanıyıram. Bilirəm ki, bəzi müşahidəçilər bu seçkilərlə bağlı mənfi münasibət bildirmişlər. Mən bunu onların vicdanına buraxıram.

Fransalı senatorlar bildirmişlər ki, digər müşahidəçilərlə aparılan danışıqlar zamanı onlar da seçkinin normal keçdiyini vurğulamışlar.

Diqqətə çatdırılmışdır ki, Fransadakı seçkilərlə Azərbaycanda keçirilən seçkilər arasında heç bir fərq hiss edilməmişdir. Yalnız Fransada keçirilən seçkiləri bu qədər müşahidəçi izləmir. Müşahidə aparılan məntəqələrdə prezidentliyə namizədlərin nümayəndələri də seçki prosesində elə bir qanun pozuntularına rast gəlmədiklərini qeyd etmişlər. Hətta ABŞ-dakı seçkilərdə də səslərin sayılmasında və s. məsələlərdə müəyyən çətinliklər baş verir. Ancaq Azərbaycandakı seçkilərdə ciddi problemlə qarşılaşmadıq.

# Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi istiqamətində növbəti addım atılmışdır

AzərTAc xəbər verir ki, bu fikir Avropa Akademiyasının seçkiləri müşahidə missiyasının Azərbaycanda keçirilən prezident seçkilərinin yekunu ilə bağlı yaydığı bəyanatda səslənmişdir.

Bəyanatda bildirilir ki, müşahidə missiyasına Avropa İttifaqının 24 ölkəsini, eləcə də Kanadanı təmsil edən 135 deputat və siyasi ekspert daxil olmuşdur. Missiya 125 seçki dairəsindən 45-də səsvermə prosesini izləmişdir.

Oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri beynəlxalq standartlara uyğun və 2009-cu ildəki referendumda təsdiqlənmiş yeni Seçki Məcəlləsi əsasında təşkil edilmişdir.

Sənəddə qeyd olunur ki, ölkədə çoxsaylı məcburi köçkünün olmasına baxmayaraq, müşahidəçilər seçicilərin qeydiyyatı ilə bağlı mühüm problemlər müşahidə etməmişlər. Müşahidəçilər namizədlərə pulsuz və ödənişli efir vaxtının verilməsini və mətbuatda nəşr üçün yer ayrılmasını müsbət qiymətləndirmişlər.

Bəyanatda deyilir ki, seçicilərin yüksək fəallığı müşahidə edilmiş və seçkilər dinc şəkildə keçirilmişdir. Mərkəzi Seçki Komissiyası və aşağı səviyyəli komissiyalar seçkilərə texniki baxımdan hazır idi və seçkilər yaxşı təşkil olunmuşdur. İştirak sərbəst və könüllü idi, seçki məntəqələrinə getməklə bağlı məhdudiyyətlər yox idi. Səslərin hesablanması və nəticələrin açıqlanması sərbəst aparılmışdır. Bundan başqa, veb kameralar quraşdırılmış məntəqələrin sayının 20 faizə çatdırılması da yüksək qiymətləndirilir.

Vurğulanmışdır ki, bu seçkilər demokratiyanın nisbətən gənc olduğu Azərbaycanda demokratik seçkilərin beynəlxalq standartlara müvafiqliyi baxımından növbəti irəliləyişin göstəricisidir.

# Çanq Eui-Yonq: *Əminəm ki, Azərbaycan xalqı öz gələcəyi naminə düzgün seçim etmişdir*

*Əminəm ki, Azərbaycan xalqı öz gələcəyi naminə düzgün seçim etmişdir.*

AzərTAc xəbər verir ki, bu sözləri ölkəmizdə keçirilən prezident seçkilərinin yekununa həsr olunmuş mətbuat konfransında Asiya Siyasi Partiyaları Beynəlxalq konfransının seçki müşahidə missiyası adından çıxış edən Çanq Eui-Yonq demişdir.

Azərbaycanda keçirilən prezident seçkilərini izləməyə Milli Məclisin dəvəti ilə gəldiklərini deyən Çanq Eui-Yonq müşahidələrdə İran, Koreya Respublikası, Nepal, Pakistan, Filippin, Türkiyə və Vyetnamdan olan nümayəndələrin iştirak etdiyini diqqətə çatdırmışdır.

Seçki günü müşahidə missiyasının üç qrupa ayrıldığını qeyd edən Çanq Eui-Yonq bir sıra seçki məntəqələrində müşahidələr apardıqlarını diqqətə çatdırmışdır. Vurğulanmışdır ki, seçkinin başlanğıcından sonuna qədər müşahidələr aparılmışdır. Bülletenlerin paylanması, seçicilərin səs verməsi və bülletenlərin sayılması prosesləri yaxından izlənilmişdir. Müşahidələr zamanı heç bir qanun pozuntusuna rast gəlinməmişdir.

Vurğulanmışdır ki, namizədlər üçün ödənişsiz televiziya debatlarının təşkil olunması onların öz platformalarını seçicilərinə çatdırmalarına geniş imkan yaratmışdır.

Bu seçkilər demokratiyanın daha da inkişafı istiqamətində önəmli bir addımdır.

# Seçki günü dinc və sabit şəraitdə keçmişdir

Oktyabrın 10-da Müstəqil Mətbuat Mərkəzində TürkPA-nın beynəlxalq müşahidəçilər missiyası oktyabrın 9-da Azərbaycanda prezident seçkilərinin yekunu ilə bağlı mətbuat konfransı keçirmişdir.

AzərTAc xəbər verir ki, TürkPA-nın baş katibi Jandos Asanov müşahidəçilərə seçkiləri izləmək üçün yaradılan şəraitə görə təşəkkürünü bildirmişdir.

TürkPA müşahidəçilər missiyasının rəhbəri, Türkiyə parlamentinin üzvü Haluk İpək seçki monitorinqinin nəticələri barədə məlumat vermiş, bu barədə rəyi təqdim etmişdir.

O bildirmişdir ki, missiya prezident seçkilərinin qısamüddətli monitorinqini həyata keçirmiş və bu çərçivədə Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov, xarici işlər naziri Elmar Məmmədyarov, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov ilə görüşlər olmuşdur. Bu görüşlərdə müşahidəçilərə prezident seçkilərinə hazırlıqla bağlı görülən tədbirlər haqqında ətraflı məlumat verilmişdir.

TürkPA missiyasının rəhbəri vurğulamışdır ki, səsvermə günü dinc və sabit şəraitdə keçmiş, heç bir pozuntu və yayınma halı müşahidə edilməmişdir. Ümumilikdə seçki prosesi beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilmişdir. Azərbaycan vətəndaşlarına öz iradələrini sərbəst və maneəsiz şəkildə ifadə edərək Konstitusiya ilə müəyyən olunmuş seçmək və seçilmək hüquqlarından istifadə etməyə şərait yaradılmışdır. Eyni zamanda, məntəqələrdə yaradılmış şərait, texniki təchizat təqdirəlayiqdir. H.İpək məlumat vermişdir ki, 1.300-ə yaxın beynəlxalq müşahidəçi seçkiləri müşahidə etmək üçün qeydiyyatdan keçmişdir. Müşahidəçilər Birləşmiş Millətlər Təşkilatı tərəfindən 2005-ci ildə təsdiq edilmiş Beynəlxalq Müşahidəçilər üçün Davranış Kodeksində və digər beynəlxalq hüquqi sənədlərdə əksini tapan prinsiplərin pozulması və ya yayınma hallarını qeydə almamışlar.

# Prezident İlham Əliyev: *Bundan sonra da Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir*



Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclası giriş nitqi ilə açan dövlətimizin başçısı bildirmişdir ki, ilin 3-cü rübü ölkə üçün əlamətar hadisələrlə yadda qalmışdır. «Doqquz ay çox uğurlu keçdi, qarşımızda duran bütün vəzifələr icra edildi. Azərbaycan iqtisadiyyatı bu il uğurla inkişaf edir və bu dinamik inkişaf, əminəm ki, gələcək illərdə də özünü göstərəcəkdir. Çünki bu günə qədər aparılan islahatlar və əldə edilmiş nəticələr deməyə əsas verir ki, bundan sonra da Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir».

2013-cü ilin ötən dövrü ərzində iqtisadi artımın 5,4 faiz təşkil etdiyini bildirən Prezident İlham Əliyev dünyada hələ də davam edən böhran şəraitində bu makroiqtisadi göstəricinin kifayət qədər yüksək olduğunu diqqətə çatdırmışdır: «Ən sevindirici məsələ ondan ibarətdir ki, qeyri-neft sektorumuz artır, yüksək templərlə artır və ilin əvvəlindən bu günə qədər bu yüksək templər qorunur. Qeyri-neft sektorumuz doqquz ayda 10,4 faiz artmışdır və hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricidir. Eyni zamanda, Azərbaycanda aparılan islahatlar bax bu nəticəyə gətirib çıxarmışdır. Çünki iqtisadiyyatımızın neft-qaz amilindən asılılığı ildən-ilə daha da azalır və beləliklə, iqtisadiyyatımızın şaxələndirilməsi məsələləri də öz həllini tapır». Dövlət başçısı qeyd etmişdir ki, hazırda qoyulan investisiyalar, yaradılan yeni iş yerləri, sənaye istehsalının yeni istiqamətləri gələcəkdə də qeyri-neft sektorunun yüksək templərlə inkişafını təmin edəcəkdir. Beləliklə, Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən asılılığını gələcəkdə tamamilə aradan götürəcəkdir.

Prezident İlham Əliyev bildirmişdir ki, hesabat dövründə inflyasiya 2,3 faiz təşkil etmiş, əhalinin pul gəlirləri isə 7,6 faiz artmışdır. Qeyd olunmuşdur ki, ölkəmizdə makroiqtisadi vəziyyət sabitdir və bu parametrə görə Azərbaycan dünya miqyasında birinci onluqdadır. «Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliyinə görə 39-cu yerdədir. Bu, tarixi nəticədir, böyük qələbədir və dünya miqyasında ilk 40 ölkənin sıralarına daxil olmaq islahatların, düşünülmüş siyasətin, bizim uğurlarımızın nəticəsidir. Əlbəttə ki, bu, Azərbaycanı dünyada sürətlə və dinamik inkişaf edən ölkə kimi təqdim edir və Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsində də bizə kömək göstərəcəkdir».

Azərbaycanın sərmayə cəlbediciliyindən danışan dövlətimizin başçısı investisiya iqliminə görə respublikamızın postsovet məkanında və regionda çox cəlbedici ölkə olduğunu qeyd etmişdir.

Prezident İlham Əliyev valyuta ehtiyatlarımızın artırılması ilə bağlı qarşıya qoyulmuş hədəflərə nail olunduğunu qeyd etmiş, ötən 9 ayda valyuta ehtiyatlarımızın 49,4 milyard dollar təşkil etdiyini diqqətə çatdırmışdır. «Bu, 9,4 milyon əhalisi olan ölkə üçün çox böyük göstəricidir. Adambaşına düşən valyuta ehtiyatlarına görə, hesab edirəm ki, Azərbaycan dünya miqyasında ön sıralardadır və bu, düşünülmüş, ardıcıl siyasətin nəticəsidir. Biz, əlbəttə ki, ölkə qarşısında duran vacib məsələlərin həlli üçün vəsait ayırırıq. İldən-ilə artan dövlət investisiya proqramı, xaricdən gələn investisiyalar, infrastruktur layihələrinə ayrılan vəsait bu məqsədi güdür».

Ölkəmizdə güclü sosial siyasətin həyata keçirildiyini də qeyd edən Azərbaycan Prezidenti sosial proqramların uğurla icra edildiyini bildirmiş, son 10 il ərzində maaşlar və pensiyaların dəfələrlə artırıldığını vurğulamışdır. Regionların social-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən proqramın uğurla icra olunduğunu qeyd edən Prezident İlham Əliyev ikinci regional inkişaf proqramının artıqlaması ilə icra edildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, təkcə bu ilin 9 ayında 90 minə yaxın yeni iş yeri açılmışdır. Bütövlükdə isə son 10 il ərzində 1 milyon 200 mindən çox yeni iş yeri açılmışdır ki, bu da işsizliyin azaldılmasına gətirib çıxarmışdır.

Tədbirdə iqtisadi inkişaf naziri Şahin Mustafayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov 2013-cü ilin 9 ayında ölkədə müşahidə olunan makroiqtisadi sabitlik və inkişaf barədə danışmışlar.

İclasda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev davam etdirilən layihələrin və proqramların icrası ilə bağlı müvafiq tapşırıqlarını vermişdir.

# «Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası»

*Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Sərgi Mərkəzində «Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası» sərgisi ilə tanış olmuşlar.*

Sərginin üç pavilyonunda Azərbaycanın sənaye, energetika, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, sahibkarlıq, nəqliyyat, turizm, fövqəladə hallar, şəhərsalma, səhiyyə, elm və təhsil, gənclər və idman, ekologiya, su və kanalizasiya, mədəniyyət və digər sahələrdə qazandığı nailiyyətlər, regionların sosial-iqtisadi inkişafının əsas göstəriciləri nümayiş etdirilir.

Mərkəzin birinci sərgi salonunda 14 sahə üzrə 51 dövlət qurumu və 70-dən artıq özəl şirkət təmsil olunur.

Dövlətimizin başçısı və xanımı sərginin «Makroiqtisadiyyat», «Sənaye», «Energetika», «İnformasiya və kommunikasiya texnologiyaları», «Nəqliyyat», «Fövqəladə hallar», «Şəhərsalma və dövlət əmlakı», «Xarici siyasət», «Gənclər və idman», «Mədəniyyət və turizm», «Sosial inkişaf və xidmətlər», «Ekologiya», «Su və kanalizasiya», «Aqrar-sənaye kompleksi» bölmələrindəki stendlərə baxdılar. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən nüfuzlu «Doing Business 2009» hesabatında Azərbaycan dünyada ən islahatçı ölkə elan edilmişdir. Azərbaycanın bu uğurunun göstəricisi olan mükafat da bu salonda nümayiş etdirilir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ikinci sərgi salonunda regionların sosial-iqtisadi inkişafına həsr edilmiş pavilyonlarla tanış oldular. Burada quraşdırılmış stendlərdə dövlət proqramları çərçivəsində hər bir rayon üzrə görülən işlər geniş əks olunmuşdur. Stendlərdə regionlarda aparılan abadlıq-quruculuq işləri, açılmış müəssisələr və iş yerləri, istifadəyə verilmiş sosial obyektlər və s. barədə geniş məlumatlar verilir.

Bakı Sərgi Mərkəzinin üçüncü salonundakı 300 nəfərlik konfrans zalında «Heydər Əliyev Fondu Azərbaycanın dinamik inkişafına xidmət edən layihə və proqramlar həyata keçirir» mövzusunda təqdimat, qapalı zalda isə «Azərbaycan: dünən və bu gün» filmi nümayiş etdirilir. Burada, həmçinin, «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinə məxsus stend quraşdırılmışdır.

Sərginin açıq havada təşkil edilmiş hissəsində isə müxtəlif dövlət qurumları və şirkətlər tərəfindən bir sıra texnika və avadanlıq, eləcə də Azərbaycanda istehsal olunmuş məhsullar nümayiş etdirilir.

# «Vergi partnyorluğu sazişlərinin tətbiqi vergi inzibatçılığının səmərəliliyini artıracaq»

*Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətlərin qarşılıqlı inam əsasında qurulmasına imkan verən çevik və işlək mexanizmlərin tətbiqində maraqlıdır. Bu məqsədlə nazirlik yaxın zamanlarda vergi ödəyiciləri ilə könüllülük əsasında partnyorluq sazişlərinin imzalanmasına başlamağı planlaşdırır. Vergi orqanı ilə vergi ödəyicisi arasında könüllü niyyət razılaşması olan bu sazişin imzalanması vergilərin düzgün və tam ödənilməsində vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsinə, münasibətlərin qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında qurulmasına xidmət edir.*

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev qəzetimizə müsahibəsində sazişin reallaşdırılması mexanizmləri ilə bağlı fikirlərini bölüşmüşdür.*

***- Akif müəllim, artıq vergi ödəyiciləri ilə partnyorluq sazişlərinin bağlanılmasına başlanılır. İlk öncə belə bir suala aydınlıq gətirək: bu sazişlərin mahiyyəti nədən ibarətdir?***

- İnformasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir şəraitdə ticarətin, kapitalın və işçi qüvvələrinin liberallaşması, biznesin təşkili və idarəolunmasının yeni modellərinin meydana çıxması vergi inzibatçılığının qeyri-ənənəvi metodlarından istifadəni zəruri edir. Beynəlxalq təcrübə göstərir ki, vergi inzibatçılığının səmərəliliyi və büdcə mənafeyinin qorunması baxımından vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlər elə qurulmalıdır ki, mübahisəli məsələlərin minimuma endirilməsi təmin olunsun, mübahisələr yarandıqda isə onlar tərəflərin qanuni maraqları və ictimai mənafelər qorunmaqla partnyorluq münasibətləri əsasında həll edilsin.

Vergitutmada partnyorluq münasibətləri vergilərin hesablanması, ödənilməsi və onlara nəzarətin həyata keçirilməsi məsələləri üzrə vergi orqanları ilə vergi ödəyiciləri arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanan razılaşmaların əldə edilməsini nəzərdə tutur.

Bir çox ölkələrin, o cümlədən İrlandiyanın, İsveçrənin, Niderlandın və Amerika Birləşmiş Ştatlarının təcrübəsi göstərir ki, vergi orqanları ilə vergi ödəyiciləri arasındakı münasibətlər partnyorluq və qarşılıqlı əməkdaşlıq əsasında qurulduqda vergi ödəyicilərinin işgüzar aktivliyinə və azad iqtisadi fəaliyyətinə xələl gətirilmədən minimal resurslarla maksimum səmərəli vergi nəzarətinin təşkili və həyata keçirilməsi təmin olunur.

Vergitutmada partnyorluq münasibətlərinin tətbiq olunmasının üstünlükləri nəzərə alınaraq, bununla bağlı Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, partnyorluq münasibətləri vergi ödəyicilərinin vergi yükünün azaldılmasını nəzərdə tutmur. Sadəcə olaraq, vergi ödəyiciləri bu münasibətləri qurmaqla vergiyə cəlbolunmanın xüsusiyyətlərini əvvəlcədən vergi orqanları ilə razılaşdıraraq özlərini əsassız günahlandırılmalardan sığorta etmiş olurlar. Meydana çıxan mübahisəli məsələlər isə hər iki tərəfin mənafeyi gözlənilməklə güc və məhkəmə prosedurları tətbiq olunmadan həll edilmiş olur.

***- Hazırda partnyorluq sazişlərinin bağlanılması üçün bütün hüquqi addımlar yekunlaşıbmı? Bununla bağlı vergi ödəyicilərinin məlumatlandırılması aparılırmı?***

- Nazirlər Kabineti tərəfindən «Vergi partnyorluğu sazişinin forması» və «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları» artıq təsdiq olunmuşdur. Eyni zamanda partnyorluq sazişlərinin bağlanması üçün lazımi şəraitin yaradılması və onların tam yerinə yetirilməsinə nəzarətin təmin edilməsi üçün vergilər nazirinin müvafiq əmrləri ilə vergi partnyorluğu sazişinin bağlanması üçün ərizə forması (o cümlədən müraciətin elektron qaydada edilməsi), sazişin bağlanmasını həyata keçirən struktur vahidləri və onların vəzifələri təsdiq olunub.

«Vergi partnyorluğu sazişinin forması», «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları» və «Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə» forması Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmiş və onların tətbiqi barədə vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Göründüyü kimi, vergi partnyorluğu sazişlərinin bağlanması üçün zəruri olan hüquqi və inzibati tədbirlər artıq həyata keçirilmişdir.

***- Partnyorluq sazişinin bağlanması üçün hansı meyarlar əsasdır? Şirkətlər hansı meyarlara əsasən seçilir?***

- Vergi partnyorluğu sazişinin bağlanması üçün müraciət edilməsi könüllüdür və bu, istənilən vergi ödəyicisinin hüququdur. Lakin Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları»na əsasən, bu Qaydalarla müəyyən olunmuş hallarda vergi orqanları sazişin bağlanmasından imtina edə bilər. Bunlara vergi ödəyicisinin dövlət büdcəsi qarşısında öhdəliyinin olması, vergi ödəyicisinin fəaliyyəti ilə bağlı həyata keçirilən nəzarət tədbirinin nəticəsi üzrə yekun qərarın olmaması və mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin müəyyən edilməsi halları aiddir.

Eyni zamanda, Qaydalarla müəyyən olunmuşdur ki, sazişin bağlanması məqsədilə müvafiq qaydada müraciət edən vergi ödəyicilərinin seçimi zamanı sertifikatlaşdırılmış proqram təminatı ilə mühasibat uçotu aparan şəxslərə, ƏDV ödəyicilərinə və maliyyə xidmətlərini həyata keçirən kredit və sığorta təşkilatlarına, vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edənlərə, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir.



***- Partnyorluq sazişinin bağlanması şirkətlərin fəaliyyətinə hansı müsbət təsirlər göstərə bilər? Yəni vergi ödəyicisi bu sazişi bağlamağa nə üçün maraqlı olmalıdır? Belə sazişi bağlamış vergi ödəyicisi üçün hansısa xüsusi güzəştlər olacaqmı?***

- Bir daha qeyd etmək istərdim ki, partnyorluq münasibətlərinin qurulması heç bir halda vergi öhdəliklərinin azaldılmasını və yaxud vergi ödəyicisi üçün hansısa xüsusi güzəştin verilməsini nəzərdə tutmur.

Vergi partnyorluğu sazişi vergi risklərinin minimallaşdırılması məqsədilə vergi orqanı və vergi ödəyicisi arasında könüllü bağlanmış niyyət razılaşmasıdır. Hesab edirəm ki, belə razılaşmanın olmasında ilk növbədə vergi ödəyicisi maraqlı olmalıdır. Çünki vergi partnyorluğu sazişi birinci növbədə vergi ödəyicisinin vergidən yayınma risklərinin minimallaşdırılmasını və əlavə maliyyə itkilərinin qarşısının alınmasını nəzərdə tutur. Bunlarla yanaşı, qarşılıqlı etimada və məsuliyyətə əsaslanan partnyorluq sazişləri vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsini və onların həllinə çəkilən inzibatçılıq xərclərinin hər iki tərəf üçün aşağı salınmasını təmin edir.

***- Partnyorluq sazişlərinin bağlanması vergi orqanlarına nə verir? Partnyorluq prinsiplərinin tətbiqi vergi ödənişlərinin həcminin artmasına da təsir göstərəcəkmi?***

- Vergi partnyorluğu sazişlərinin tətbiqi vergi inzibatçılığının səmərəliliyinin artırılması baxımından həm də dövlət vergi orqanları üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, vergi ödəyiciləri ilə münasibətlərin qarşılıqlı etimad və məsuliyyət əsasında qurulması biznes subyektlərinin vergi orqanlarının fəaliyyətinə cəlb edilməsini, vergilərin düzgün və tam ödənilməsində dövlət vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsini, vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılmasını, sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısının alınmasını təmin edir. Bunlar da, öz növbəsində, vergi ödəyicilərinin işgüzar fəaliyyətində aktivliyi yüksəltməklə, onların gəlirlərinin və son nəticədə isə vergi daxilolmalarının artırılmasına imkan yaradır.

## İlk doqquz ayda «195» Çağrı Mərkəzinə daxil olmuş müraciətlərin statistikası

*2013-cü ilin yanvar-sentyabr aylarında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi tərəfindən 197 min 4 müraciət cavablandırılmış, vergi ödəyicilərinə 367 min 282 sayda mesaj göndərilməklə onların məlumatlandırılması təmin edilmişdir.*

Telefon Məlumat Xidmətinə daxil olmuş müraciətlərin 139 min 18-i canlı rejimdə müfəttiş-operatorlar, 57 min 986-sı səsli menyu vasitəsilə elektron operator tərəfindən cavablandırılmışdır. Müfəttiş-operatorlar tərəfindən cavablandırılmış suallar arasında vergi növləri (12,4%), elektron xidmətlər - elektron imza və «ASAN İmza» simkartının əldə edilməsi (28%), hesabatlar və onların doldurulma qaydaları (9,2%), qeydiyyat (11,1%) barədə suallar, səsli menyu vasitəsilə qəbul edilmiş müraciətlər arasında isə vergi növləri (48,2%) və dövlət büdcəsinə olan vergi borcları (27,6%) barədə müraciətlər üstünlük təşkil etmişdir.

Hesabat dövrü ərzində canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılmış müraciətlərin sayı 2012-ci ilin müvafiq dövrünə nisbətən 33,4% artmışdır. Ötən dövr ərzində vətəndaşlardan şikayət (ərizə) və məlumat xarakterli 1.133 müraciət qəbul edilərək aidiyyəti üzrə göndərilmişdir.

Canlı rejimdə vergi ödəyicilərindən daxil olan sual xarakterli müraciətlərin 98%-i müfəttiş-operatorlar tərəfindən dərhal, 2%-i isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavablandırılmışdır. Müraciətlərin 72,8%-i Bakı şəhərindən, 14,4%-i ölkənin müxtəlif bölgələrindən, qalanı isə mobil operatorlardan daxil olmuşdur.

## Operativ nəzarət tədbirləri

2013-cü ilin sentyabr ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 3.562 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 2.218 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 451 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 194 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 285 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Operativ nəzarət tədbirləri zamanı 296 vergi ödəyicisi tərəfindən 614 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 120 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 18 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 507 ədəd mal olduğu aşkarlanmışdır.

Aşkar edilmiş faktlarla əlaqədar qanunamüvafiq tədbirlər görülmüşdür.

## Vergi ödəyicilərinə xidmətin keyfiyyəti yüksəldilir

### *«Vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları» təsdiq edilmişdir*

Vergilər Nazirliyinin həyata keçirdiyi vergi siyasətinin başlıca prinsiplərindən biri vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin yüksəldilməsidir. Bu istiqamətdə ardıcıl və məqsədəuyğun tədbirlər həyata keçirən nazirlik son illər Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqi nəticəsində ödəyicilərə göstərilən xidmətləri genişləndirib, keyfiyyəti artırıb, bu sahədə informasiya təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb, beynəlxalq təcrübəyə əsaslanan yeni mütərəqqi xidmət vasitələri yaradılıb. «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişaf Konsepsiyası»nda yeni mərhələdə vergi ödəyicilərinə xidmət sahəsinin inkişafı, göstərilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi, funksional idarəetmənin yeni formalarının tətbiq olunması nəzərdə tutulub.

Burada müəyyən olunmuş əsas hədəflər vergi ödəyiciləri ilə əlaqələri yeni - partnyorluq və qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında, daha müasir informasiya texnologiyalarından istifadə etməklə quraraq vergi qanunvericiliyinə könüllü əməletmə prosesinin inkişaf etdirilməsidir. Bu günlərdə vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları»nda ödəyicilərə göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətin daha da artırılması nəzərdə tutulur. Qaydalara əsasən, vergi ödəyicilərinə xidmət mərkəzlərinə olan tələblər, xidmətin təşkili proseduru, göstərilən xidmətlər, təmsilçilərin təlimi və onlara olan tələblər, təhlil və qiymətləndirmə meyarları müəyyən edilib. Qeyd olunur ki, bütün xidmət mərkəzləri qaydalarla müəyyən edilmiş tələblərə cavab verməlidir. Xidmət mərkəzlərində kağız daşıyıcıda sənədləri qəbul etməklə göstərilən xidmətlər istisna olmaqla, digər xidmətlər ərazi prinsipi nəzərə alınmadan həyata keçirilir. Mərkəzlər saat 09:00-dan 18:00-dək fasiləsiz xidmət göstərir. Zərurət yarandığı halda mövcud qanunvericiliyin tələbləri nəzərə alınmaqla xidmət mərkəzlərində qəbul saatları artırıla bilər. Mərkəzlərdə xidmətlər xidmət strukturlarının əməkdaşları tərəfindən göstərilsə də, zəruri hallarda (hədəflərə uyğun olaraq daha keyfiyyətli və operativ xidmət göstərilməsi məqsədilə) vergi orqanının digər strukturlarının əməkdaşları və digər şəxslər müqavilə əsasında bu prosesə cəlb olunur. Qeyd olunan strukturların təmsilçiləri bilik və peşə hazırlığı səviyyəsini artırmaq üçün Vergilər Nazirliyinin Tədris Mərkəzində qiymətləndirmələrdən keçməlidir.

Qaydalarda xidmət mərkəzlərində elektron xidmətlərin göstərilməsi, vergi ödəyicilərinin müraciətlərinə uyğun olaraq cavabların hazırlanması, müvafiq sənədlər təqdim edilməsi prosedurları da əks olunub. Eyni zamanda, vergi bəyannamələrinin, hesabatların, arayışların və digər sənədlərin qəbulu, vergilərə aid ərizə və hesabat formalarının verilməsi qaydaları mexanizmləri, göstərilmiş xidmətlərin keyfiyyətinin və təmsilçilərin qiymətləndirilməsi meyarları da qaydalarda əsas komponentlər sırasındadır.

**Elbrus CƏFƏRLİ**

## Sosial təyinatlı obyektlərin və istehsal müəssisələrinin istifadəyə verilməsində böyük canlanma

*Cari ilin 9 ayı ərzində respublikada 198 məktəb, 35 uşaq bağçası, 19 tibb müəssisəsi, 27 mədəniyyət və 19 gənclər və idman obyekti tikilmiş və təmir olunmuşdur.*

Bu sözləri iqtisadi inkişaf naziri Şahin Mustafayev oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında demişdir.

Nazir qeyd etmişdir ki, hesabat dövründə sement, transformator, elektrik avadanlıqları, boru, kərpic, şüşə qablar, metalkonstruksiya zavodları, seramik plitələr və tekstil parkları, kağız emalı və karton istehsalı, parça boyama fabrikləri istifadəyə verilmişdir.

Bu müəssisələrin fəaliyyəti idxaldan asılılığın əhəmiyyətli dərəcədə azalmasına, daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə, ixrac potensialının artırılmasına imkan verəcəkdir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankının sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi ötən 9 ayda **1 568 mln. ABŞ dolları** (13,4%) artaraq dövrün sonuna **13 262,7 mln. ABŞ dolları** təşkil etmişdir.
- Bu ilin doqquz ayında Azərbaycan iqtisadiyyatına **17,7 milyard dollar** investisiya qoyulmuşdur ki, bunun da **10,5 milyard dolları** daxili, **7,2 milyard dolları** isə xarici sərmayələrdir.
- Bu günə qədər **19 450** sahibkara ümumilikdə **1,2 mlrd.** manatdan artıq güzəştli kredit verilib.
- Azərbaycanda **1 200**-dən çox Avropa şirkəti qeydə alınıb.
- Bu ilin doqquz ayında **90 minə** yaxın yeni iş yeri açılmışdır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi öhdəliyinin yerinə yetirilməsi

***Vergi öhdəliyinin yerinə yetirilməsi müddətləri dəyişdirilə bilərmi və əgər dəyişdirilə bilərsə, hansı hallarda mümkündür?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsi (bundan sonra - VM) ilə hər bir vergiyə dair ödənilmə müddətləri müəyyən edilir. Vergilərin ödənilmə müddətləri pozulmaqla ödənilməsinə görə vergi ödəyicisi VM ilə müəyyən edilmiş qaydada və şərtlərlə faiz ödəyir. Vergilərin müəyyən edilmiş ödənilmə müddətinin dəyişdirilməsi yalnız VM ilə müəyyən edilmiş qaydada həyata keçirilə bilər. VM-in 85.6-cı maddəsinə əsasən, vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri olduqda VM ilə müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər:

1. Təbii fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə. Bu halda vergi ödəyicisi hadisənin baş verməsi barədə və onun nəticəsində dəymiş zərərin məbləği barədə müvafiq dövlət orqanlarının arayışlarını təqdim etməlidir;

2. Vergini birdəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda. Bu halda vergi ödəyicisi müraciət edilmə tarixinə vergi ödəyicisinin kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların adı, VÖEN göstərilməklə debitor və kreditor borcları barədə arayışları təqdim etməlidir.

Nəzərə almaq lazımdır ki, vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciətini vergi orqanına göndərir. Müraciət vergi növü (növləri) üzrə onların müvafiq hesabat dövrü üçün qanunvericiliklə müəyyən edilmiş ödəmə müddətinədək təqdim olunmalıdır. Müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Vergilər Nazirliyi) 30 gün müddətində bu müraciətə baxır və müvafiq əsaslar olduğu halda müddətin uzadılması barədə qərar qəbul edir.

Yuxarıda qeyd edilən əsaslar olduqda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi ili ərzində 1 aydan 9 ayadək uzadıla bilər. Həmin müddət ərzində vergi ödəyicisinə faizlər hesablanmır. Qeyd edək ki, vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır.

Müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Vergilər Nazirliyi) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında vergi üzrə borcun məbləği, ödənilməsi müddəti uzadılan verginin növü (növləri), ödənilmənin müddəti və qaydası, hesablanan faizlər, habelə girov və ya zəmanət haqqında qeydlər göstərilməlidir.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadıldığı müddətlərdə vergi öhdəliyi mərhələlərlə yerinə yetirildikdə vergi orqanlarının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərarında vergi öhdəliyinin mərhələlərlə yerinə yetirilməsi qaydası göstərilməlidir. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması haqqında qərar bu qərarda müəyyən edilmiş müddətdən qüvvəyə minir.

Bildiririk ki, girov müqaviləsinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada etibarsız hesab edilməsi vergi ödəyicisinin vergi öhdəliyini ləğv etmir. Girov müqaviləsinin qeydiyyatı ilə bağlı xərclər vergi ödəyicisi tərəfindən ödənilir.

Onu da qeyd edək ki, VM-in 85.14-cü maddəsinə əsasən, vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

1. Vergi ödəyicisi vergi öhdəliyini vaxtından əvvəl yerinə yetirdikdə;

2. Vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırıldıqda;

3. Vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərarının şərtlərinə əməl edilmədikdə.

Yuxarıda nəzərdə tutulmuş hallarda vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar vermiş vergi orqanı 5 gün müddətində vergi ödəyicisinə bu barədə məlumat verməlidir. Vergi ödəyicisi məlumatı aldığı tarixdən 30 gün müddətində borc məbləğini və ödəmə gününə qədər həmin məbləğə qanunvericiliyə uyğun olaraq hesablanmış faizləri büdcəyə ödəməlidir.

# Əsas iqtisadi rayonların regional inkişaf planları hazırlanıb

*Respublikanın əsas iqtisadi fəal rayonlarında məhsuldar qüvvələrin yerləşdirilməsi və təbii ehtiyatlardan geniş istifadə olunması məqsədilə regional inkişaf sxemləri hazırlanıb.*




Yeni layihələr artıq bölgələr üzrə müvafiq icra hakimiyyəti orqanlarına təqdim olunub. Hazırda Aran iqtisadi rayonu, Gəncə-Qazax, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran və Dağlıq Şirvan iqtisadi zonalarının regional planları razılaşdırılma mərhələsindədir. Bununla bağlı yekun qərar ilin sonuna qədər veriləcək.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən verilən məlumata görə, respublikanın bölgələrinin regional planları yerli şirkətlərlə yanaşı, xarici şirkətlərin birgə işinin nəticəsində ərsəyə gəlməkdədir: Gəncə-Qazax iqtisadi zonasının inkişaf sxemini yerli «Integres» və Türkiyənin «Ana Kent» şirkətləri, Quba-Xaçmaz iqtisadi rayonunun inkişaf sxemini «Renesans Studiya» şirkəti, Şəki-Zaqatala iqtisadi rayonunun inkişaf sxemini «Risk» Elm-İstehsalat Şirkəti və Sankt-Peterburq mütəxəssisləri birlikdə hazırlamışlar. Azərbaycanın ən iri iqtisadi zonası olan Aran bölgəsinin Baş Planı Fövqəladə Hallar Nazirliyinin tərkibindəki «Azərdövlətlayihə» institutu tərəfindən, Dağlıq Şirvan iqtisadi zonası üzrə isə Vilnüsun (Litva) xüsusi bələdiyyə müəssisəsi ilə birgə hazırlanmışdır.

Qeyd edək ki, Böyük Bakının Regional İnkişaf Planının hazırlanmasında da xarici mütəxəssislər iştirak edirlər. Planın iqtisadi məsələləri üzrə amerikalı ekspertlər, planlaşdırma hissəsi üzrə avstraliyalı, ekoloji məsələlər üzrə isə ispaniyalı mütəxəssislər araşdırma aparırlar. Planda əlavə yarımmərkəzlərin yaradılması da öz əksini tapıb. Həmin yarımmərkəzlər sənaye, mədəniyyət və ticarət sahələrini əhatə edəcək. Bu cür yarımmərkəzlərin inşası şəhərin formalaşmış tarixi-memarlıq mühitinin qorunub saxlanılması şərti ilə həyata keçiriləcək.

Avtovağzalın Biləcəridə olması, Dəmir yolu vağzalı xətlərinin azalması da yeni bir mərkəzin yaradılmasına gətirib çıxaracaq. Bakının ətrafındakı mədən ərazilərinin isə rekultivasiyası planlaşdırılır. Plana görə, gələcəkdə təxminən 25 min hektarın rekultivasiyası və həmin ərazilərdə yaşıllıq zonasının salınması nəzərdə tutulub. Bütün bu tədbirlərin əsas məqsədlərindən biri də Bakı şəhərinin mərkəzi hissəsində olan sıxlığın aradan qaldırılmasıdır.

Bakıdan başqa, sənaye yarımmərkəzlərinin Sumqayıtda, Qaradağda, Ələt zonasında və Xırdalanda da yaradılması nəzərdə tutulur.

**Rəşad SADIQOV**

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.***

***Müsabiqədə mükafata layiq yer tutmuş növbəti məqaləni təqdim edirik.***

# Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri

*Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında vətəndaşların nağdsız ödənişlərə kifayət qədər maraq göstərmədiyinə diqqət çəkmişdi: «Bu, böyük problemdir. Bu, bir tərəfdən bu sistemdə şəffaflığın tam təmin edilməsi üçün bizə imkan vermir, eyni zamanda, xoşagəlməz halların mövcudluğunu da şərtləndirir. Hesab edirəm ki, bu il daha da ciddi tədbirlər görülməlidir. Mən təkliflər gözləyirəm ki, nağdsız hesablaşmaların, ödəmələrin sayı artsın... Burada, necə deyərlər, heç bir yeni üsul icad etməməliyik, inkişaf etmiş ölkələrin təcrübələrinə baxmaq kifayətdir».*

Artıq Vergilər Nazirliyi ölkədə nağdsız ödənişlərin stimullaşdırılması yönündə müvafiq təkliflərini Prezident Administrasiyasına təqdim edib. Vergilər naziri Fazil Məmmədov bildirib ki, stimullaşdırıcı təkliflər çoxsaylı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Nazirin sözlərinə görə, bu tədbirlər sırasında nağdsız ödənişlər zamanı ƏDV-nin tam ləğvi məsələsi də var ki, bu da problemin həllinə çox ciddi təkan verə biləcək addım kimi nəzərdən keçirilə bilər. Ümumilikdə isə, nazirin sözlərinə görə, verilən təkliflərin 90%-i nağdsız ödənişlərin stimullaşdırılmasına, yalnız 10%-i nağd ödəmələrin məhdudlaşdırılmasına aiddir. Təkliflər sırasında həmçinin şəxsi hesabdan nağd pul çıxarılmasına məhdudiyyətlər də yer alıb.

Ekspertlər nağdsız ödənişlərin həcminin artırılmasını bir sıra parametrlər baxımından vacib sayır. Məsələn, bilindiyi kimi, bu hal büdcəyə daha çox verginin cəlb olunmasını təmin edəcək. Ən başlıca məsələ isə odur ki, nağdsız ödənişlərin stimullaşdırılması «kölgə iqtisadiyyatı»nın qarşısının alınmasına mühüm töhfələr vermək iqtidarındadır. Beynəlxalq ekspertlərin fikrincə, toplam vergilərin ÜDM-də payının nisbətinə əsasən «kölgə iqtisadiyyatı»nın payı barədə mülahizə irəli sürmək mümkündür. Liberal iqtisadiyyatın tələbi dövlətin hər bir işləyən və məşğul şəxsdən vergi ala bilməsini təmin etməkdir. Bunun üçün iqtisadiyyatın leqallaşdırılması vacib şərtlərdəndir. Bu gün nağdsız dövriyyənin inkişaf etdiyi ölkələrdə «kölgə iqtisadiyyatı» göstəricilərinin aşağı olması deyilənləri sübutdur. Həmin ölkələrdə də iqtisadi şəffaflığın kifayət qədər yüksək, korrupsiyanın səviyyəsinin aşağı olduğunu bildirən ekspertlər Avropa ölkələrinin əksəriyyətində nağdsız ödənişlərin həddən artıq üstünlük təşkil etməsinə diqqət çəkərək həmin ölkələrin yüksək inkişaf göstəricilərini həm də nağdsız ödənişlərin tətbiqi ilə bağlayırlar. Qərb ölkələrində ödənişlərin 80-90%-i nağdsız əməliyyatların payına düşür. Azərbaycanda isə hələ bu göstərici aşağı qiymətləndirildiyindən bu istiqamətdə məqsədyönlü tədbirlərin görülməsi günün tələbidir.



Azərbaycanda nağdsız əməliyyatların statistikasının aşağı olması bir sıra stimullaşdırıcı təkliflərin həyata keçirilməsini zəruri edir

Nağdsız ödəmənin bir üstünlüyü də onun ölkədə pul dövriyyəsinə nəzarət imkanını gücləndirməsidir ki, bu da vergidən yayınma hallarını minimuma endirməklə şəffaf alqı-satqı əməliyyatlarının həyata keçirilməsi ilə yanaşı, büdcə daxilolmalarının da stimullaşdırılmasına təminat verir. Azərbaycanda nağdsız əməliyyatların statistikasının aşağı olması bir sıra stimullaşdırıcı təkliflərin həyata keçirilməsini zəruri edir. Bu sırada ilk yerlərdən birini, vergilər nazirinin də qeyd etdiyi kimi, nağdsız ödənişlərdən tutulan vergilərə müəyyən güzəştlərin tətbiqi təşkil edir. Nazirlər Kabinetinə təqdim olunan təkliflər sırasında bu məsələnin də yer alması yaxın illərdə Azərbaycanda bu sahədə real addımların atılacağından xəbər verir.

Təcrübə göstərir ki, kağız pulların azalması ilə cinayətkarlığın da sayının azalmasına nail olmaq mümkündür. Məsələn, İsveçdə 2008-ci ildə 110 bank yarma cəhdi qeydə alındığı halda, 2011-ci ildə bu rəqəm 16-ya enmişdi. Eyni zamanda, insanların üzərində nağd pul gəzdirməməsi onların həyatını soyğunçuların, müxtəlif kriminal ünsürlərin hücumundan qoruyur.

Mütəxəssislər əmindirlər ki, nağdsız hesablaşmaların artması ölkədə nağd hesablaşmaları sıxışdıracaq. Onların sözlərinə görə, nağdsız hesablaşmaların səviyyəsi ölkə iqtisadiyyatının inkişafını müəyyən edən əsas meyarlardan biridir. Yəni iqtisadi tərəqqi nə qədər yüksək olarsa, dövriyyədə bir o qədər az nağd pul olar. Nağd pulun azlığı isə həm korrupsiyaya, həm vergidən yayınmaya, həm də qara bazara ciddi zərbədir. Bu gün Azərbaycanda istər korrupsiyaya, istər vergidən yayınmaya, istərsə də «kölgə iqtisadiyyatı»na qarşı ciddi mübarizə aparıldığı nəzərə alınarsa, nağdsız hesablaşmaların dövriyyədə xüsusi çəkisinin artırılmasının nə qədər böyük əhəmiyyət kəsb etdiyi aydın olar.

Hazırda Azərbaycanda nağdsız hesablaşmalar sisteminin genişləndirilməsi, onun bütün ticarət və xidmət sahələrini əhatə etməsi yönündə genişmiqyaslı işlərə rəvac verildiyi faktdır. Bu gün əksəriyyət kommunal ödənişləri Pay Point-lər vasitəsilə həyata keçirir, büdcə təşkilatlarında çalışanlar əməkhaqqını, təqaüdçülər pensiyaları kart vasitəsilə alır. Bunlarla yanaşı, ölkədə onlayn alış-veriş şəbəkələri də inkişaf etməkdədir ki, bu da insanlara evdən və ya iş yerindən ayrılmamaqla alış-veriş imkanı yaratmaqla onların rahatlığını təmin edir, alış-verişin reallaşması prosesinin vergiyə cəlb edilməsinə şərait yaradır. Yəni bu halda alqı-satqı subyektlərinin vergidən yayınma şansı azalır ki, bu da büdcəyə əlavə gəlirin daxil olmasını şərtləndirir. Bundan əlavə, son illər ölkədə Elektron Hökumətin yaradılması istiqamətində görülən tədbirlər də nağdsız hesablaşmaların geniş təşəkkül tapmasına öz töhfəsini verməkdədir. Artıq Azərbaycan vətəndaşı kommunal borclarını ödəmək üçün banklarda, poçt şöbələrində saatlarla növbə gözləməklə vaxt itirmir, bunu marketlərdə, metro stansiyalarında, bankların qarşısında quraşdırılmış çoxsaylı POS-terminallar vasitəsilə həyata keçirə bilir. İri və xırda sahibkarlar, iş adamları hər kvartal vergi bəyannaməsi vermək və gəlir vergisi ödəmək üçün, əvvəllər olduğu kimi, vergi idarələri qarşısında qələbəlik yaratmır, onlayn ödəniş etməklə yanaşı, vergi bəyannamələrini nazirliyin *e-taxes.gov.az* saytı üzərindən rahatlıqla göndərə bilirlər.

Hazırda nağdsız ödəniş sisteminin sərnişin nəqliyyatına tətbiqi yönündə də işlər gedir. Şəhərin mərkəzi hissəsində hərəkət edən marşrutlarda başlanması nəzərdə tutulan bu prosesin sonradan genişləndirilərək ətraf kənd və qəsəbələri də əhatə etməsi planlaşdırılır. İndi şəhərdaxili marşrut avtobuslarına bu məqsədlə turniketlərin quraşdırılmasına start verilib. Metroda artıq illərdir tətbiq olunan və özünü doğruldan plastik kart sisteminin avtobuslara tətbiqi ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Ölkənin sərnişin nəqliyyatındakı hərcmərcliyin kart sisteminin tətbiqi ilə aradan qalxacağını bildirən ekspertlər bunun büdcə daxilolmalarına da müsbət təsir göstərəcəyini bildirirlər.

Bütün bu sadalananlar - bu günə kimi görülən və bundan sonra görülməsi planlaşdırılan tədbirlər Azərbaycan dövlətinin öz vətəndaşlarının rifahının daha da yaxşılaşdırılması istiqamətində gördüyü işlərin yalnız bir hissəsi olsa da, perspektiv və əhəmiyyət baxımından çox ciddi nəticələr vəd edir.

**Samirə SƏFƏROVA,**
***«Bakı Xəbər» qəzeti***

# «İnsan İnkişafı İndeksi»ndə Azərbaycanın mövqeyi yüksəlib

*Müasir dövrdə sosial ədalət meyarını rəhbər tutan hər bir dövlətin qarşıya qoyduğu ali məqsəd vətəndaş amilinin tərəqqisi, insanlar üçün maksimum firavan yaşayış şəraitinin təmin edilməsidir. Azərbaycanın bu sahədə əldə etdiyi mühüm göstəricilər müxtəlif beynəlxalq təşkilatların, o cümlədən nüfuzlu reytinq agentliklərinin hesabatlarında da öz real əksini tapır.*

Ümumdünya İqtisadi Forumunun (ÜİF) bu günlərdə açıqladığı «İnsan Kapitalı İndeksi» («Human Capital Index») üzrə ilk reytinq cədvəlində respublikamız regionun əksər ölkələrini qabaqlayaraq 64-cü yerdə qərarlaşıb. 122 ölkənin yer aldığı reytinq cədvəlində təhsil, səhiyyə, əlverişli sosial mühitin mövcudluğu, işçi qüvvəsi və məşğulluq kimi parametrlər nəzərə alınmaqla, ölkələrin uzunmüddətli iqtisadi potensialının maksimal inkişaf imkanları qiymətləndirilib. Azərbaycan təhsil səviyyəsinə görə 71-ci, əlverişli sosial mühitin mövcudluğu, işçi qüvvəsi və məşğulluğa görə 55-ci yeri tutub.

***Azərbaycan təhsil səviyyəsinə görə 71-ci, əlverişli sosial mühitin mövcudluğu, işçi qüvvəsi və məşğulluğa görə 55-ci yeri tutub***

Müasir dövrdə hər bir cəmiyyətin inkişafı bilavasitə insanın fəaliyyəti, onun əməyinin məhsuldarlığı ilə əlaqəli olduğundan insana qoyulan investisiya - insan kapitalı xüsusi əhəmiyyətə malikdir. İnsan kapitalı təhsil, elm, səhiyyə, mədəniyyət, incəsənət, informasiya xidmətinə əsaslanmaqla formalaşır. İnsan kapitalı kompleks sahələri əhatə etməklə istər iqtisadi, istər sosial, istərsə də siyasi-hüquqi sahəyə geniş təsir imkanlarına malikdir. Sadalanan amillər insanın cəmiyyətdəki mövqeyini müəyyənləşdirməklə onun həyat səviyyəsini xarakterizə edir. Bu baxımdan son zamanlar beynəlxalq qurumlar bir çox ölkədə insan kapitalını həmin parametrlərə görə ölçərək milli sərvətin tərkibində istehsal və təbii resurslarla yanaşı, insan kapitalını da hesablayırlar.

Azərbaycan son illər bu göstərici üzrə digər beynəlxalq təşkilatların hesabatlarında da irəliləyib: BMT-nin 1990-cı ildən etibarən hər il açıqladığı analoji hesabata əsasən, respublikamız yüksək insan inkişafı ölkələri qrupunda yer alıb. Bu indeksin hazırlanması zamanı əhalinin uzun və sağlam ömürlüyü, təhsil səviyyəsi, habelə insanların alıcılıq qabiliyyəti əsas götürülür.

Onu da bildirək ki, BMT-nin «İnsan İnkişafı İndeksi» hesabatında ölkələr 4 kateqoriyaya bölünüb: 1-dən 47-dək yerləri tutan ölkələr insan inkişafının çox yüksək, 48-dən 94-dək yüksək, 95-dən 141-dək orta, 142-dən 187-dək olan ölkələr isə aşağı səviyyədə olduğu ölkələr hesab edilir. Xatırladaq ki, 2012-ci ilin nəticələrinə görə, respublikamız BMT-nin «İnsan İnkişafı İndeksi»ndə 82-ci yeri tutmaqla inkişafın yüksək olduğu ölkələr sırasında mövqeyini möhkəmləndirib.

Bütün bunlar isə ölkədə insan amili üzərində qurulan inkişaf strategiyasının beynəlxalq səviyyədə bəyan olunan uğurlu nəticələrindən biridir. Son 10 ildə ölkədə həyata keçirilən neft strategiyasının, sosial-iqtisadi islahatların uğurları davamlı və tarazlı inkişaf baxımından zəruri olan zəngin intellektual resursların formalaşmasına, vətəndaşların təhsil, səhiyyə, sosial təminat kimi konstitusion hüquqlarının təminatına, habelə insan kapitalının formalaşmasına əsaslı təkan verib. Azərbaycan istər səhiyyə və təhsil problemlərinin həlli, istərsə yoxsulluğun aradan qaldırılması, məşğulluğun, sosial infrastrukturun müasirləşdirilməsi sahələrində uğurlu nəticələr əldə edib.

Ötən 10 ildə ölkədə «sosial dövlət» konsepsiyası uğurla həyata keçirilib. 2003-cü ilin statistik göstəricilərinə əsasən, həmin il Azərbaycanda yoxsulluğun səviyyəsi 44,4% olduğu halda, 2013-cü ilin birinci yarısında 5,6% təşkil edib. Həmin il işsizliyin səviyyəsi 28% idisə, 2013-cü ilin birinci yarısında bu rəqəm 5,15% təşkil edib.

Son 10 ildə Azərbaycanda bütün sosial-iqtisadi göstəricilər kimi, orta aylıq əməkhaqqının da dəfələrlə artımı baş verib. 2003-cü ilin göstəricilərinə əsasən, Azərbaycanda orta aylıq əməkhaqqı təxminən 78 manat səviyyəsində idi. Lakin sonrakı illər ərzində ölkədə aparılan genişmiqyaslı iqtisadi islahatlar - özəl sektorun inkişafına ciddi təkan verən dövlət proqramlarının qəbulu, iqtisadi rəqabət mühitinin yaxşılaşdırılması, xüsusən qeyri-neft sektorunun inkişafı sayəsində orta aylıq əməkhaqqı ilbəil artıb. Azərbaycanda 2012-ci ilin sonunda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 403,3, 2013-cü ilin birinci yarısında isə 408,8 manat təşkil edib.

Hazırda Azərbaycan orta aylıq əməkhaqqı səviyyəsinə görə MDB-də Rusiya və Qazaxıstandan sonra üçüncü yeri tutur. Beynəlxalq maliyyə institutlarının hesabatlarına əsasən, 2003-2012-ci illərdə Azərbaycanda orta aylıq əməkhaqqı 5 dəfədən çox artıb. 2013-cü ildə orta aylıq əməkhaqqının artımının davam edərək 440 manatı (təqribən 565 ABŞ dolları) keçəcəyi gözlənilir. Bununla da ölkədə orta aylıq əməkhaqqı 2003-cü ildən 6 dəfəyədək artmış olacaq.

Ümumilikdə 2003-cü ilin əvvəlində Azərbaycanda cəmi 20 manat təşkil edən orta aylıq pensiyanın məbləği hazırda 175 manata yaxındır. 2006-cı ildə yeni pensiya sisteminin tətbiqindən bu vaxtadək yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması ilə bağlı 7, sığorta hissəsinin artırılması ilə bağlı 6 sərəncam imzalanıb. Ümumilikdə həmin dövrdən 2013-cü ilə qədər əmək pensiyalarının minimum məbləği 3,4 dəfə, orta aylıq məbləği 5,2 dəfə artıb. 2003-cü ilə nisbətdə orta əmək pensiyalarının məbləğində 8 dəfəyədək artım baş verib.

Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının statistikasına əsasən, Azərbaycan hazırda əmək pensiyasının baza hissəsinin məbləğinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur.

Ötən dövrdə respublikada dövlət ünvanlı sosial yardım sisteminin formalaşması da mühüm uğurlardan biri sayılmalıdır. Bu mexanizm 2005-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti tərəfindən imzalanmış müvafiq qanunla tənzimlənir. Qanuna əsasən, sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarından aşağı olan aztəminatlı ailələr malikdirlər. 2013-cü ilin birinci rübündə 543 minə yaxın ailə üzvünü əhatə edən 123 min 300-ə yaxın ailəyə ünvanlı sosial yardım verilib. Bir ailə üçün orta məbləğ 118 manat təşkil edib. Dünya Bankının ölkəmizdə apardığı monitorinqin nəticələrinə görə, ünvanlı yardımların təyinatında ünvanlılıq prinsipinə 90%-dək əməl olunub.

Həyata keçirilən tədbirlər deməyə əsas verir ki, sosialyönümlü iqtisadi siyasət insan inkişafının yüksəlişinə təkan veirir. Ölkənin iqtisadi inkişafından, neft strategiyasının səmərəli nəticələrindən əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir.

**S.MUSTAFAYEV**

# Pensiyaların məbləğinin artacağı gözlənilir

Ölkədə son illərdə sığorta-pensiya sahəsində aparılan islahatlar bir sıra yeniliklərin yaranması ilə nəticələnmişdir. 2006-cı ildən pensiyaların fərdi uçota toplanan maliyyə vəsaiti əsasında aparılması bu sahənin təkmilləşdirilməsini sürətləndirən əsas yeniliklərdən hesab olunur. Elə həmin ilin mart ayının 7-də ölkə başçısının imzaladığı fərmana uyğun olaraq əvvəlki qaydalar əsasında pensiya alan şəxslərin pensiya təminatı yeni normalara uyğunlaşdırılmış, pensiyaların artımı və indeksləşdirilməsinin yeni qaydaları ilə əhatə olunmaları təmin edilmişdir. 2006-cı ildən bəri ölkə başçısı tərəfindən yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması ilə bağlı səkkiz, sığorta hissəsinin artırılması ilə bağlı yeddi sərəncam verilib, əvvəl sistem əsasında pensiya alan şəxslərin yeni şəraitə inteqrasiyasının tamamlanması üçün ardıcıl qərarlar qəbul edilib.



Sığorta-pensiya sahəsində həyata keçirilən yeniliklər pensiya yaşlı insanların maraqlarının müdafiə edilməsini, onların istəklərini özündə əks etdirir. Hazırda ölkədə sığorta-pensiya sistemi müasir avtomatlaşdırılmış əsaslarla fəaliyyət göstərir. DSMF-nin mərkəzi məlumat bazasında 1 milyon 270 min nəfər pensiyaçı və fərdi hesab açılmış 2 milyon 620 min nəfər sığortaolunan barədə elektron məlumatlar toplanılıb. Bu ilin iyul ayından etibarən Azərbaycanda əmək pensiyalarının avtomatlaşdırılmış qaydada təyin edilməsinə başlanılıb. Sistemin tətbiq olunduğu üç aya yaxın vaxt ərzində 473 nəfərə avtomatlaşdırılmış qaydada pensiya təyinatı aparılıb. Onlardan 160-ı Bakı şəhərində, 313-ü isə bölgələrdə yaşayan vətəndaşlardır.

Hazırda avtomatlaşdırılmış pensiya təyinatı ilkin olaraq yaşa görə əmək pensiyası növü üzrə aparılmaqdadır. Əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyalarının təyinatının avtomatlaşdırılmış qaydada aparılması isə digər müvafiq dövlət qurumlarında qeyd olunan təyinatlarla bağlı zəruri informasiyaları özündə əks etdirən elektron xidmətlərin yaradılmasından sonra həyata keçiriləcəkdir.

Xatırladaq ki, bu xidmət pensiya yaşına çatmış hər bir vətəndaşa sənəd toplamadan və vaxt itirmədən «190-0 Çağrı Mərkəzi»nə zəng edərək şəxsiyyət vəsiqəsinin nömrəsi barədə məlumat verməklə real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdırmaq imkanı verir. Avtomatlaşdırılmış qaydada əmək pensiyası təyinatı aparılan hər vətəndaşa bir neçə dəqiqə ərzində ona təyin olunan pensiyanın məbləği, eyni zamanda öz plastik pensiya kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildirilib.

Bundan əlavə, gələcəkdə pensiyaların məbləğinin artırılması da gözlənilir. Belə ki, DSMF sədri Səlim Müslümov 2020-ci ilədək muzdla işləyən vətəndaşların sayının indiki 1,48 milyondan 2 milyon nəfərə çatacağını bildirib. Qeyd edib ki, nəticədə tətbiq edilən digər tədbirlərlə birlikdə DSMF-nin gəlirlərinin həcmi artacaq və bu vəsaitlər vətəndaşların pensiya təminatına xərclənəcək. «Gözləyirik ki, qeyd edilən dövrdə ahıl insanların pensiyalarının orta məbləği orta aylıq əməkhaqqının 50%-nə çatdırılacaq. Hazırda Azərbaycanda ahıl insanların əmək pensiyalarının orta aylıq məbləği 190 manatdır. Bu məbləğ MDB-nin bir çox ölkələrindəki müvafiq göstəricilərdən xeyli yüksəkdir. 2020-ci ilədək ölkədə orta əməkhaqqı 680-690 manata çatacaq. Bununla da fond gələcəkdə Azərbaycanda ahıl insanların orta pensiyasını 340-350 manata çatdırmağı qarşıya məqsəd qoyub».

DSMF sədrinin sözlərinə görə, son 10 il ərzində çox ciddi sosial-iqtisadi islahatların aparılmasının məntiqi nəticəsi kimi əmək pensiyalarının orta aylıq məbləği 9,2 dəfə artaraq 18,4 manatdan 170 manata, minimum məbləği 7,1 dəfə artaraq 14 manatdan 100 manata, yaşa görə pensiyalar üzrə əvəzetmə əmsalı 29,3%-dən 45%-ə çatdırılmışdır.

Qeyd edək ki, «Əmək pensiyaları haqqında» qanunun qüvvəyə mindiyi gündək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla, ölkədə 62 yaşına çatmış kişilərin və 57 yaşına çatmış qadınların azı 12 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası almaq hüququ vardır. Qanunvericiliyə görə, kişilərin yaş həddi 2010-cu il yanvarın 1-dən başlayaraq 2012-ci il yanvarın 1-dək artırılıb, qadınların yaş həddi isə 2010-cu il yanvarın 1-dən başlayaraq hər il altı ay artırılır və bu proses 2016-cı il yanvarın 1-dək davam edəcək.

**AYTƏN**

# Azərbaycanda biznes mühiti yaxşılaşır

*«Moody's» beynəlxalq reytinq agentliyinin bu günlərdə dərc olunan illik kredit hesabatında Azərbaycanın biznes mühitinin yaxşılaşması nəticəsində investisiya reytinqinin artması üçün əlverişli mühitin mövcud olduğu bildirilir.*

Sənəddə Avropa və Asiya regionu dövlətlərinin makroiqtisadi inkişaf göstəriciləri, maliyyə-bank sektorundakı sabitlik vəziyyəti, ölkələrin daxili və xarici borc öhdəliklərinin durumu, həyata keçirilən pul-kredit siyasəti və digər komponentlər təhlil edilmişdir. Təhlilin nəticəsinə görə, Azərbaycanda maliyyə sabitliyinin dözümlü olması ölkə iqtisadiyyatını daxili və xarici şoklardan qorumağa kömək edir. İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı yürüdülən siyasətə özəl şirkətlərin, maliyyə-kredit təşkilatlarının, investorların güclü dəstəyinin nəzərə çarpdığını bildirən «Moody's»un analitikləri qeyd edirlər ki, mövcud biznes mühiti beynəlxalq investorların fəaliyyətini də stimullaşdırır.

Qiymətləndirmələrdə biznesin həm daxili, həm də xarici amillər üzrə mövcud vəziyyəti, yerli və xarici sahibkarların iş fəaliyyətini, rəqabətqabiliyyətliyi, özəl biznesin ixrac imkanları və digər indeksləri təhlil edilmiş və qeyd olunmuşdur ki, bu faktorlar Azərbaycanın uzunmüddətli yerli və xarici valyutada reytinqinin «Ba1» investisiya səviyyəsində möhkəmliyini təmin etməklə yanaşı, yeni reytinqin müəyyənləşməsində də zəmin yaradır. Agentlik ekspertlərinin rəyinə görə, ölkəmizin reytinqinə müsbət təsir edəcək amillər sırasında iqtisadiyyatda institusional islahatlar, yeni İKT texnologiyalarından istifadə, iqtisadi diversifikasiyanın regionlarda geniş yayılması, Avropa Birliyi ölkələri ilə sıx inteqrasiya şəraitində yeni biznes alətlərinin tətbiqinə başlanılması mühüm təsir göstərir.

Təşkilat hesab edir ki, son illər Azərbaycanda sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün




addımlar atılıb, bürokratik əngəllərə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. Biznes mühitinin yaxşılaşması, sahibkarlığa daha əlverişli fəaliyyət meydanının yaradılması, onların müdafiəsi ilə bağlı daha təkmil mexanizmləri özündə əks etdirən qaydaların tətbiq olunması investisiya reytinqinin müəyyən edilməsində mühüm rol oynayıb.

«Moody's» reytinq agentliyinin hesabatında bir müddət əvvəl Azərbaycanda qəbul olunmuş «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» qanunun ümumi məzmununa toxunularaq bildirilir ki, yeni qanun əsas sahibkarlıq fəaliyyətləri sahəsində yoxlamaların vahid qaydalarının müəyyən edilməsi və azad biznesə qanunsuz müdaxilələrin qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır. Həmçinin kiçik və orta sahibkarlığı inkişaf etdirmək, investisiya mühitini daha da yaxşılaşdırmaq sahibkarlıq sektorunda şəffaflığı artırmağa xidmət edir. O da vurğulanır ki, sahibkarların hüquqlarının müdafiəsi və fəaliyyətinin genişləndirilməsinə xidmət edən tədbirlər özəl biznesin iqtisadi inkişafda rolunun daha da artmasına imkan verir. Bu, beynəlxalq qurumların hazırladığı hesabatlarda biznesin idarə edilməsi, sahibkarlıq mühitinin vəziyyəti, rəqabətqabiliyyətlilik, investorların hüquq və maraqlarının qorunması və digər göstəricilər üzrə Azərbaycanın mövqeyinin yüksəlməsinə səbəb olacaq.

«Moody's» Azərbaycanın qısa və ortamüddətli perspektivdə investisiya reytinqinin dəyişəcəyini, «BB-A-3» səviyyəsində yeni reytinq əmsalı əldə edəcəyini proqnozlaşdırır. Qeyd edək ki, proqnozlaşdırılan investisiya reytinqi çox yüksək inkişaf indikatorlarına malik ölkələrə məxsus göstəricidir. Bu, respublikamızın beynəlxalq statusa malik potensial sərmayəçi kimi imicinin möhkəmlənməsinə güclü əsaslar yaratmış olur. «BB-A-3» investisiya reytinqi beynəlxalq maliyyə institutlarının və investorların respublikamıza etimadının daha da yüksəlməsinə, ölkəmizin borc alıb-qaytarma qabiliyyətinin artırılmasına, iri şirkətlər tərəfindən borclanma məqsədilə qiymətli kağızların emissiyası üçün zəruri şəraitin yaradılmasına və Azərbaycanın dünyanın ən böyük kapital bazarlarına çıxışının asanlaşdırılmasına münbit şərait yaradacaq.

Agentliyin analitiklərinin fikrincə, stabil reytinq sərmayə cəlbediciliyinə təsir edir və bu mənada investisiya reytinqinin müsbət olması xarici sərmayəçilərin ölkəyə marağının artması üçün əsas şərtlərdən biri sayılır. Mövcud beynəlxalq kredit statusu Azərbaycanın dünya maliyyə bazarlarındakı fəaliyyətinə münbit şərait yaradır. Azərbaycan bu reytinq ilə beynəlxalq maliyyə bazarlarında aktiv iştirakçıya çevrilmək iqtidarında olacaq.

**Elbrus CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri

### *Müvəqqəti və daimi fərqlər*

*Əvvəli ötən sayımızda*

Audit zamanı uçotu MMUS-a və ya BMUS-a uyğun olaraq aparılan müəssisələrdə mühasibat uçotu ilə vergi uçotunun fərqləndirilməsi məsələsinə diqqət yetirilməlidir. Bəzi müəssisələrdə maliyyə hesabatlarının strukturuna görə MMUS-a və ya BMUS-a uyğun tərtib olunmasına baxmayaraq, gəlir və xərc əməliyyatlarının uçotda əks etdirilməsi vergi uçotu prinsipləri əsasında qurulmuşdur. Məsələn, vergi məqsədləri üçün gəlirlər və gəlirdən çıxılan və çıxılmayan xərclər uçot mənfəətinin hesablanmasında da eyni qayda ilə nəzərə alınmışdırsa, bunun nəticəsində hazırlanan mənfəət və ya zərər haqqında hesabat üzrə mənfəətin (zərərin) və ya xalis mənfəətin məbləği barədə informasiya təsisçilərə (səhmdarlara) düzgün təqdim olunmamış kimi hesab edilə bilər.

Məlumdur ki, hazırda uçotla bağlı bütün müəssisələrin qarşısında duran əsas vəzifələrdən biri keçid dövrü ilə əlaqədar olaraq uçotunu Beynəlxalq Standartların və ya Beynəlxalq Standartlara uyğunlaşdırılmış Milli Standartların tələblərinə əsasən qurmasıdır. Lakin hazırda bir çox müəssisələrdə uçot işini aparan işçilərin müvafiq bilgilərlə bağlı çətinliklərini nəzərə alsaq, bu keçid dövründə müəssisələr tərəfindən mühasibat uçotu ilə vergi uçotunun fərqli xüsusiyyətlərinin uçotda davamlı və düzgün tətbiq edilməsi müəyyən vaxt tələb edə bilər. Buna baxmayaraq, bu çətinlikləri həmin müəssisələrdə aparılan audit zamanı cüzi dəyişikliklər edilməklə, yəni auditor tərəfindən uçota vicdanlı müdaxilə nəticəsində aradan qaldırmaq olar.

İlk növbədə vergi məqsədləri üçün qəbul edilib-edilməməsindən asılı olmayaraq mühasibat uçotunda nəzərə alınan bütün gəlirlər və xərclər, həmçinin kapitalın artmasına və ya azalmasına birbaşa təsir edən artım və ya azalmalar üzrə əməliyyatların tərkibindən iki uçot arasındakı fərqləri yaradan əməliyyatları ayırmaq, sonra da həmin fərqləri daimi və müvəqqəti fərqlər kimi təsnifləşdirməklə iki yerə bölmək lazımdır.

Əgər mühasibat uçotunda əks etdirilən gəlir (xərc) məbləğləri ilə vergi uçotunda əks etdirilən gəlir (xərc) məbləğləri arasında fərq vardırsa, deməli, uçot mənfəəti ilə vergi mənfəəti arasında fərq yaranacaq, yəni fərqli mənfəət məbləğləri meydana gələcək. Hesablanan həm vergi mənfəətinə, həm də uçot mənfəətinə eyni vergi dərəcəsi, yəni Vergi Məcəlləsində hazırda nəzərdə tutulan 20% vergi dərəcəsi tətbiq etməklə ayrı-ayrı məbləğlərdən ibarət mənfəət vergisi tapılacaqdır. Mühasibat uçotu üzrə tapılan mənfəət vergisinin məbləği ilə vergi uçotu üzrə tapılan mənfəət vergisinin məbləği arasındakı fərq məbləğə isə müsbət və ya mənfi ola bilən təxirə salınmış vergi deyilir.

Burada diqqət yetirməli bir məqam vardır. Təxirə salınmış vergilər müvəqqəti fərqlər nəticəsində yaranan əməliyyatlara əsasən müəyyənləşdirilir. Təxirə salınmış vergilərin hesablanmasında daimi fərqlər nəzərə alınmır. Çünki daimi fərqlər bəzi gəlir və ya xərclərin vergi məqsədləri üçün tamamilə nəzərə alınmaması səbəbindən iki uçot arasındakı fərqdir. Bu fərqlər gələcəkdə heç vaxt bərpa olunmayacaq və daimi fərqlərə görə təxirə salınmış vergi aktivi və ya öhdəliyinin hesablanmasının və balansda tanınmasının heç bir mənası yoxdur. Bu cür vergi hesablamalarının aparılmasının və informasiya olaraq istifadəçiyə təqdim olunmasının iqtisadi qərarlar verilməsi üçün heç bir əhəmiyyəti yoxdur. Lakin daimi fərqləri yaradan gəlir və xərcə dair əməliyyatlar barədə məlumatlar Standartların tələbinə əsasən maliyyə hesabatlarında ayrıca açıqlanmalıdır.

*Davamı növbəti sayımızda*

## Mənfəət vergisinin bəyannaməsində amortizasiya xərclərinin əks etdirilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hazır məhsul istehsalı və satışı ilə məşğul olan müəssisələr tərəfindən vergi orqanına təqdim olunan həm mənfəət vergisinin bəyannaməsində, həm də həmin bəyannaməyə 1 №-li Əlavədə vergitutma məqsədləri üçün hesablanan amortizasiya xərcləri barədə məlumatlar əks etdirilir. İstehsalat prosesinin xarakterindən asılı olaraq mənfəət vergisinin ödəyiciləri tərəfindən vergi orqanına təqdim olunan bəyannamədə amortizasiya xərcləri barədə məlumatlar bəzən fərqli göstərilir.

Məsələn, hesabat dövründə cəmi 100 ədəd hazır məhsul istehsal olunmuşdursa və hesabat dövründə bu məhsulların istehsalına silinən xərclərin tərkibində amortizasiya məbləği 1.000 manat olmuşdursa, anbara təhvil verilən həmin 100 ədəd hazır məhsulun maya dəyərinin tərkibində formalaşan amortizasiya məbləği də 1.000 manat olacaqdır. Əgər hesabat dövründə həmin hazır məhsuldan 50 ədədi satılmışdırsa, satılan hazır məhsulun tərkibində formalaşan amortizasiya məbləği 500 manat olacaqdır. Sual oluna bilər ki, mənfəət vergisi bəyannaməsinin gəlirlərə Əlavədə isə 1.000 manat göstərilməsi daha real informasiya hesab edilməlidir. Sadəcə olaraq vergi orqanına əlavə açıqlama (izahlı) məktub təqdim etməklə amortizasiya ilə bağlı uyğunsuzluq yarada biləcək məsələyə qabaqcadan aydınlıq gətirmək olar. Lakin bəzi müəssisələrdə bəyannamənin xərclər hissəsində amortizasiya məbləğini 1.000 manat göstərməklə Əlavədə əks etdirilən amortizasiya ilə bağlı 1.000 manat məbləğlə eyniləşdirmək istəyirlər ki, kameral yoxlama qaydasında uyğunsuzluq aşkar edilməsinə ehtiyac yaranmasın. Əslində, bu, səhv yanaşmadır. Əgər bəyannamədə gəlirdən çıxılan amortizasiya xərci kimi 1.000 manat göstərilsə, belə halda digər hər hansı xərc göstəricisinin real məbləğini məcburən azaltmalı olurlar və bu da təhrif olunmuş məlumatın təqdim edilməsinə gətirib çıxarır. Əslində, faktiki amortizasiya ayırmalarının tam məbləği ilə bağlı məlumatlar bəyannamənin 1 №-li Əlavəsindən, gəlirdən çıxılmalı olan amortizasiya xərcləri barədə məlumatlar isə bəyannamənin gəlirdən çıxılan xərclər barədə hissəsindən əldə edilməlidir.

Bunu digər bir misalla izah edək. Tutaq ki, vergi ödəyicisində əməliyyatlar aşağıdakı kimi baş vermişdir: dəalarına uyğun olaraq 6 ədəd hazır məhsulun təqdim olunması ilə əlaqədar gəlirin əldə edilməsi ilə bağlı amortizasiya xərci 300 manat hesab edilməlidir. Bu məbləğ də mənfəət vergisi bəyannaməsinin gəlirlərin əldə edilməsi ilə bağlı xərclər hissəsində əks etdirilməlidir. Qalan 200 (500-300) manat amortizasiya məbləği isə ehtiyat kimi saxlanılan 4 ədəd hazır məhsulun 720 manata bərabər maya dəyərinin tərkibində formalaşıb. Bu dəyər də 1 №-li Əlavədə 1.3.1 «hazır məhsul» sətri üzrə müvafiq xanada öz əksini tapır.

Lakin faktiki amortizasiya ayırmaları kimi hesablanan 500 manat tam amortizasiya məbləği mənfəət vergisinin 1 №-li Əlavəsinin 1.1 «əsas vəsaitlərin dəyəri» sətri üzrə «silinmişdir» xanasında tam göstərilməlidir. Baxmayaraq ki, bəyannamədə eyni adlı xərc başlığı altında müxtəlif məbləğlər əks etdirilir, bu, uyğunsuzluq kimi qiymətləndirilməməlidir. Eyni zamanda, vergi ödəyicisindən bəyannamənin gəlirlərin əldə edilməsi ilə bağlı xərclər hissəsində bizim misal üzrə 300 manat əvəzinə 500 manat göstərilməsini tələb etmək düzgün olmazdı. Çünki bəyannamənin gəlirlərin əldə edilməsi ilə bağlı xərclər hissəsində amortizasiya xərci 500 manat (200

| MƏZMUN | DEBET | KREDİT | MƏBLƏĞ |
|---|---|---|---|
| İstehsalata xammal buraxılışı | istehsalat xərcləri | xammal | 1000 |
| İstehsalatda digər xərclər | istehsalat xərcləri | kassa | 300 |
| İstehsalat üzrə amortizasiya xərcləri | istehsalat xərcləri | amortizasiya | 500 |
| İstehsalatdan10 ədəd hazır məhsul mədaxil olunub | hazır məhsul | istehsalat xərcləri | 1800 |
| Hesabat dövründə 6 ədəd hazır məhsul satılıb - satış qiyməti ilə dəyəri | debitor borclar | satış | 1300 |
| Satılmış 6 ədəd hazır məhsulun maya dəyəri | satışın maya dəyəri | hazır məhsul | 1080 |

rin əldə edilməsi ilə bağlı xərclər hissəsinin amortizasiya göstəricilərində və 1 №-li Əlavənin 1.1 «əsas vəsaitlərin dəyəri» sətri üzrə «silinmişdir» xanasında eyni məbləğ (yəni 1.000 manat) göstərilməlidir, yoxsa fərqli məbləğlər (500 manat və 1.000 manat) göstəriləcəkdir? Əgər fərqli amortizasiya məbləğləri göstəriləcəksə, bu, uyğunsuzluq yarada bilərmi? Əslində, amortizasiya məbləğinin bəyannamədə 500 manat,

Göründüyü kimi, 10 ədəd hazır məhsulun 1.800 manata bərabər maya dəyərinin tərkibində amortizasiya ayırmalarının ümumi həcminin 500 manat olmasına baxmayaraq, satılmış 6 ədəd hazır məhsulun 1.080 (1.800 manat /10 ədəd x 6 ədəd) manata bərabər maya dəyərinin tərkibində amortizasiya ayırmalarının ümumi həcmi (xüsusi çəkisi) 300 (500 manat /10 ədəd x 6 ədəd) manatdır. Ona görə də Vergi Məcəlləsinin müd- manat artırılmış formada) əks etdirildikdə, bəyannamənin xərclər hissəsində digər xərc maddələri üzrə göstəricilərdən hər hansı biri və ya bir neçəsi süni olaraq azaldılmalıdır ki, gəlirdən çıxılan xərcin yekun məbləği dəyişməz qalsın, yəni bizim misal üzrə 1.080 manata bərabər olsun. Bəyannamədə başqa xərclərin real göstəricilərinin süni azaldılması isə xərclər barədə məlumatların təhrifinə gətirib çıxarır.

vergi təqvimi

**OKTYABR**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | **17** | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş günün keçirilmişdir.

**Ödənilən vergi:**
17 oktyabr - «(1)» və «(2)».
21 oktyabr - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurulmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergi tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə, dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.




vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

«Göygöl» kooperativinin əsas fəaliyyəti tikinti materiallarının alqı-satqısı, müxtəlif təşkilatlarda tikinti-quraşdırma işlərinin həyata keçirilməsi ilə bağlı olub. Müəssisənin kifayət qədər müştərisi olub, hətta Bakı şəhəri ilə yanaşı, bölgələrdə də tikinti-quraşdırma işləri aparılıb. Amma araşdırmalar göstərib ki, kooperativin rəhbəri Səməd Xəlilov dövlət büdcəsinə ödənilməli xeyli vergi məbləğinin «arxasına keçib».

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti İstintaq idarəsi tərəfindən aparılmış istintaqla müəyyən edilib ki, «Göygöl» kooperativinin direktoru Səməd Xəlilov Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.7, 98, 101, 105.1, 130.1, 130.2, 153-154-cü maddələrinin tələblərini pozaraq təqdim etdiyi vergi bəyannaməsinə müəssisənin gəlirləri və xərcləri barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil etməklə 119.246,81 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayındırıb. Aparılmış səyyar vergi yoxlamasının nəticələrinə dair tərtib olunan akta əsasən, kooperativdə 131.359,18 manat 22% dərəcə ilə mənfəət vergisi, 2,8 manat muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergi və 101,57 manat əlavə dəyər vergisi, ümumilikdə 131.463,55 manat həcmində vergi dövlət büdcəsinə ödənilməyib. Vergi Məcəlləsinin 105.1-ci maddəsinə edilmiş və 2010-cu ilin yanvar ayının 1-dən qüvvəyə minmiş əlavə və dəyişikliklər nəzərə alınaraq «Göygöl» kooperativində mənfəət vergisinin 20% dərəcə ilə tutulması yüngülləşdirici hal kimi qəbul olunub və müəssisənin dövlət büdcəsindən yayındırdığı mənfəət vergisinin məbləği 119.142,44 manat, ümumilikdə 119.246,81 manat təşkil edib.

Departament tərəfindən tərtib olunan ittiham aktına əsasən, S.Xəlilov barəsində Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə cinayət işi açılıb. İstintaqa verdiyi ifadədə sahibkar ona qarşı elan olunmuş ittihamla özünü qismən təqsirli bildiyini təsdiqləyib.

Lakin aparılmış istintaqın yekunu olaraq sahibkarın vergi cinayəti törətməsi tam sübuta yetirilmiş, Yasamal rayon məhkəməsinin qərarı ilə onun barəsində 2 ay müddətində həbs qətimkan tədbiri seçilmişdir. Sonradan məhkəmə S.Xəlilovun dövlət büdcəsinə ödənilməli vergi məbləğinin 5 min manat həcmində olan hissəsinin ödənilməsini nəzərə alaraq həbs qətimkan tədbirini dəyişdirərək, ev dustaqlığı tədbiri ilə əvəz etmişdir. Proseslərin sonrakı gedişi isə S.Xəlilovun Yevlax rayon məhkəməsinin hökmü ilə 3 il azadlıqdan məhrum edilməsi ilə nəticələnmişdir. S.Xəlilovun aqibəti hər bir vergi ödəyicisi üçün ibrət dərsi olmalıdır: vergilər dövlət büdcəsinə vaxtında və tam ödənilməlidir.

**ELBRUS**

beynəlxalq panoram

# Böyük Britaniyada sosial layihələr vergi güzəştləri ala bilər

*Hökumət ictimai cəhətdən əhəmiyyətli layihələrin investorları üçün vergi güzəştlərinin tətbiqi imkanlarını araşdırır. Ölkənin sosial sferasının inkişafına sərmayə yatıran vergi ödəyicilərinə vergi güzəştlərinin verilməsi imkanları haqqında sənədlər dərc edilib.*



Böyük Britaniyada hazırda qüvvədə olan qaydalara əsasən, vergi endirimləri və güzəştlər yalnız investisiya layihələrində pay iştirakına müvafiq verilir. Mövcud qanunvericilik belə layihələrdə borc vəsaitlərinin ayrılması vasitəsilə iştirak edənlərə güzəştlər təqdim etmir, halbuki sosial layihələrin maliyyələşdirilməsi üçün bu üsul ən çox istifadə olunan investisiya mexanizmidir. Hökumət tərəfindən başladılmış məsləhətləşmələr «sosial layihələr» termininin vergi təyinatının genişlənməsinə və nəticədə borc investisiyasını nəzərdə tutan layihələrin də güzəştlər almasına gətirəcək.

Bundan başqa, hökumət fərdi investorlar üçün kapitalın artımına vergi güzəştləri təqdim etmək niyyətindədir. Lakin bir şərtlə ki, belə artım sosial sferaya reinvestisiyalara yönəldilsin və ya eyni zamanda bir neçə sosial layihədə iştirak edən investorlar üçün vergi öhdəliklərinin qarşılıqlı əvəzləşdirilməsinə imkan versin.

Sənədlərdə göstərilir ki, sui-istifadə hallarının aradan qaldırılması üçün istənilən güzəştlər yalnız bu və ya digər layihədə şəxsi marağa malik olmayan investorlar üçün əlçatan olmalıdır və eləcə də qısamüddətli investisiyalara aid edilməyəcəkdir.

Böyük Britaniya hökumətinin bu addımı ölkədə sosial təşəbbüslərin dəstəklənməsi üzrə milli siyasətin davamı hesab edilir. 2012-ci ildə hökumət sosial layihələrin maliyyələşdirilməsi olan dünyada ilk ixtisaslaşdırılmış «Big Society Capital» bankını yaradıb.

# Avropa siyasətçiləri maliyyə vergisinin tətbiqini dəstəkləyir

*Avropa Parlamenti maliyyə əməliyyatlarına beynəlxalq verginin tətbiqi planını dəstəkləməyə razılıq verib, lakin sistemin təkmilləşdirilməsi üzrə bir sıra təkliflər irəli sürüb.*

Avropa Parlamentinin İqtisadi və pul siyasəti məsələləri üzrə komitəsində keçirilmiş səsvermə nəticəsində maliyyə əməliyyatlarına beynəlxalq verginin tətbiqinin planlarını dəstəkləmək qərara alınıb. Artıq Avropanın 11 ölkəsi yeni verginin tətbiqi üzrə planların həyata keçirilməsi ilə bağlı birgə işlər aparır və bu prosesin müvəffəqiyyətlə tamamlanacağı halda Avropa İttifaqı ölkələrində səhmlər və istiqraz vərəqələri ilə bütün əməliyyatlara 0,1%, digər qiymətli kağızlarla əməliyyatlara isə 0,01% həcmində vergi təyin ediləcək. Avropa Parlamenti, eləcə də onun İqtisadi və pul siyasəti məsələləri üzrə komitəsi yeni vergilərin tətbiqi üçün qanunverici səlahiyyətə malik deyil, lakin Avropa İttifaqı bu məsələlərdə həmin qurumların tövsiyələrindən istifadə edir.



Brüsseldə Avropa Parlamentinin iclasında çıxış edən vergi məsələləri üzrə avrokomissar Alqidras Şemeta bildirib ki, uzun müddətdən bəri müzakirə olunan verginin dərəcəsi ilkin halda azaldıla da bilər. Bununla da yeni verginin tətbiqinə Avropa dövlətlərinin razılığını almaq daha asan ola bilərdi.

A.Şemetanın sözlərinə görə, Avropa Komissiyası vergi dərəcəsinin azaldılması təkliflərini müzakirə etməyə hazırdır. Güzəştli tariflər «spesifik maliyyə əməliyyatları»na tətbiq ediləcək. Bunların sırasına dövlət borcları ilə bağlı əməliyyatlar, pensiya fondlarının əməliyyatları və şirkətlər arasında qarşılıqlı hesablaşmalar aiddir. Komissar qeyd edib ki, ilkin mərhələdə verginin dərəcəsi azaldıla bilər, lakin gələcəkdə cari vəziyyətdən asılı olaraq dərəcə dəyişdiriləcək.

Yeni verginin dövlət borcları ilə bağlı əməliyyatlara və pensiya fondlarının əməliyyatlarına tətbiqi niyyəti ekspertlər tərəfindən son dərəcə neqativ qiymətləndirilir. Onlar hesab edirlər ki, Aİ belə addım atarsa, bu, maliyyə məhsullarının son istehlakçılarına mənfi təsir edəcək.

İlkin planlara əsasən, vergi artıq 2014-cü ilin yanvarından tətbiq edilməli idi, lakin bu, çətin ki baş tutsun. Yeni verginin tətbiqi ilə bağlı müzakirələr hələ də müsbət nəticə verməyib.

# Moldova ilə BVF arasında yeni əməkdaşlıq sazişi imzalana bilər

*Beynəlxalq Valyuta Fondunun (BVF) Moldova hökuməti ilə ölkənin yeni iqtisadi siyasətinin fond tərəfindən dəstəklənməsi ilə bağlı apardığı danışıqlara əsasən, yeni əməkdaşlıq sazişi bu ilin sonuna kimi imzalana bilər.*

Fondun Moldovadakı sabiq nümayəndəsi Nikolay Georgiyev bildirib ki, Moldova ÜDM-in artımının məcmu göstəricilərinə görə regionda liderdir, inflyasiya göstəriciləri BVF ilə razılaşdırılmış çərçivələrdə saxlanır. Eyni zamanda, dövlət və özəl sektorda real əməkhaqlarının müsbət artım dinamikası müşahidə olunur ki, bu da adambaşına düşən real gəlirlərin artımına şərait yaradır.

O, hökumətə iqtisadi artımın keyfiyyət göstəricilərinə daha çox diqqət ayırmağı tövsiyə edib. N.Georgiyev qeyd edib ki, buna qədər iqtisadi artım daha çox qastarbayterlərin gəlirləri hesabına təmin olunurdu, indi isə hökumət iqtisadiyyatın artımı üçün «yeni mühərriki» işə salmalıdır: «Biznes mühitini yaxşılaşdırmaq, investisiyalar cəlb etmək və yerli istehsal məhsullarının ixracının artırılmasına nail olmaq lazımdır».

Bundan başqa, BVF hökumətə tövsiyə edib ki, dövlət məmurlarına əməkhaqlarını və pensiyaları artırmaqdan, eləcə də kənd təsərrüfatı məhsullarına vahid verginin tətbiqindən imtina etsin. Bundan başqa, hökumətin son zamanlar qəbul etdiyi bir sıra iqtisadi xarakterli qərarlar da mənfi nəticələr verə bilər. Bu qərarlar cari büdcə çərçivəsinə sığışmır və onlara yenidən baxılmalıdır.

BVF missiyasının Moldovaya səfəri hələ fevral ayında baş tutmalı idi, lakin səfər ölkədəki siyasi böhran səbəbindən bir neçə dəfə təxirə salınmışdı. Bu səbəbdən də Moldova fonddan əməkdaşlıq sazişi çərçivəsində 76 mln. dollar həcmindəki son kredit transını ala bilməmişdi. Moldova hökumətinə «Banca de Economii» dövlət bankı ilə bağlı vəziyyəti stabilləşdirmək və dövlət büdcəsinin gəlirlərinin təmin edilməsi üçün müvafiq büdcə-vergi tədbirləri qəbul etmək tövsiyə edilib.

Xatırladaq ki, Moldova Respublikası ilə BVF arasında əməkdaşlıq sazişi 2010-cu ildə təsdiqlənib. Proqram Moldovaya 572,7 mln. dollar həcmində maliyyə yardımı ayrılmasını nəzərdə tutur. Kreditləşdirmə çərçivəsində Moldova hökuməti və ölkənin Mərkəzi Bankı büdcə kəsirinin azaldılması üçün sərt fiskal və maliyyə-pul siyasəti həyata keçirməyi öhdəlik götürüb.



# Estoniyada qida məhsullarına yüksək vergilər tətbiq edilir

*Estoniya Avropa Birliyi ölkələri arasında qida məhsullarına dövriyyədən vahid vergi (20%) tətbiq edən az ölkələrdən biridir. Digər Avropa Birliyi ölkələrində qida məhsulları və alkoqolsuz içkilər ya güzəştli vergiyə cəlb edilir, ya da ümumiyyətlə vergidən azaddır.*

Qonşu şimal ölkələrində də bu sahəyə güzəştli vergilər mövcuddur. Belə ki, İsveçdə qida məhsullarına verginin dərəcəsi 12%, Finlandiyada 14% təşkil edir. Avropa Birliyinin aparıcı ölkələri olan Almaniya və Fransada verginin dərəcəsi 7% təşkil edir. Böyük Britaniyada qida məhsulları ümumiyyətlə vergidən azaddır. İspaniya və İtaliyada qida məhsullarına vergi həmin ölkələrdə tətbiq olunan dövriyyə vergisindən aşağıdır və 10% təşkil edir, əhəmiyyətli qida məhsullarının ayrıca kateqoriyalarına isə vergi 4%-ə qədər azaldılıb.

krossvord



**Yuxarıdan aşağı:**

1.Plastik kartla nağd pul alınması üçün qurğu; 2.Azərbaycanın görkəmli rəssamının soyadı (1928), Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı; 4.Sərinləşdirici içki; 5.Sakit okeanın qərbində yaranan tropik siklonların yerli adı; 6.Məqsəd, amal; 8.Linqvistikada deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə fərqlənən sözlər; 11.Hidrotexnikada suyun hərəkəti üçün çəkilən süni məcra; 13.Müxtəlif cür maliyyə məlumatlarının yığılması, işlənilməsi və analiz edilməsi ilə bağlı biznes sferası; 15.Yunan mifologiyasında personaj, dağ nimfası; 16.Linqvistikada mənaca bir-birinin əksi olan sözlər; 17.Divarda xam mal üzərində çəkilmiş şəkil; 19.Sovet estrada müğənnisinin (kontralto) soyadı (1937). SSRİ Xalq artisti (1988); 20.2004-cü ildə keçirilmiş Yay Olimpiya Oyunlarının paytaxtı.

**Soldan sağa:**

3.Sümüksüz mal əti; 7.Afrikada zərb çalğı aləti; 9.İlk cəhddən hədəfi məhv edən xüsusi təlim keçmiş atıcı; 10.Yunan mifologiyasında güc, hakimiyyət tanrısı; 11.Dahi İtaliya opera müğənnisinin (tenor) soyadı (1873-1921); 12.Avstroneziya dillərinin Şərqi malay-polineziya dilləri qrupuna aid dil. Kuk adaları ilə Yeni Zelandiyada danışılır; 14.Püstəkimilər fəsiləsinə aid tropik bitki cinsi; 18.Torpaq sahəsindən və ya əmlakdan daimi əldə olunan qazanc; 19.Ornametlə bəzədilmiş iri tikilinin mərkəzi girişi (arxitekturada termin); 21.Fillər fəsiləsinə aid heyvan cinsi; 22.İngilis dramaturqu, şair və aktyorun soyadı (1564-1616). Dünya ədəbiyyatının ən məşhur dramaturqlarından biri. Ən azı 17 komediyanın, onlarla tarixi pyesin, 11 faciənin və sonetlər silsiləsinin müəllifidir; 23.Müsbət elektroda tərəf hərəkət edən mənfi yüklü ion; 24.Yaponiyanın Küsü adasının cənubunda yerləşən liman şəhəri. 1945-ci ildə ABŞ tərəfindən bombardman olunmuşdur.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 1.İran; 4.Orakul; 8.Abonent; 9.Ail; 10.Lal; 12.Əli; 13.Bern; 16.Tamada; 17.Dombra; 20.SAAB; 21.İon; 22.Xaş; 24.Ufa; 25.Papirus; 27.Partos; 28.Azad.
**Yuxarıdan aşağı:** 2.Rza; 3.Neon; 4.Otello; 5.Akt; 6.Exolot; 7.Plan; 9.Averbax; 11.Lambada; 14.Ada; 15.Bor; 18.Anşlaq; 19.Kompas; 20.Sous; 23.Arpa; 25.Pat; 26.Siar.

Vergilər Nazirliyinin kollektivi
Vergi Auditi Departamentinin əməkdaşı
**Məlik Quliyevin**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
**Ünvan:** AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
**Tiraj: 15000**

## idman

# İdmançılar və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatlar müəyyən edilmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İndoneziyanın Palembanq şəhərində keçirilən III İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq birinci yeri tutan hər bir idmançı 50 min manat, onun məşqçisi 25 min manat, ikinci yeri tutan hər bir idmançı 30 min manat, onun məşqçisi 15 min manat, üçüncü yeri tutan hər bir idmançı 20 min manat, onun məşqçisi 10 min manat məbləğində mükafat alacaq.

# Azərbaycan güləşçiləri beynəlxalq turnirlərdə medallar qazanmışlar

*Saxa Respublikasının Yakutsk şəhərində keçmiş SSRİ, Rusiya Federasiyası və Saxa Respublikasının əməkdar məşqçisi Dmitri Korkinin xatirəsinə həsr olunmuş 6-cı beynəlxalq turnir başa çatmışdır.*

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, turnirdə sərbəst güləş üzrə yığma komandamızın altı üzvü ölkəmizi təmsil etmişdir. Güləşçilərimiz turniri iki gümüş və bir bürünc medalla başa vurmuşlar.

Belə ki, 84 kiloqram çəki dərəcəsində mübarizə aparan İlya Xamikoyev finala qədər maneəsiz irəliləmişdir. Finalda iranlı Əlirza Kərimi ilə görüşdən məğlub ayrılan güləşçimiz gümüş medala sahib olmuşdur. Eyni çəkidə digər təmsilçimiz İbrahim Yusubov isə bürünc medal qazanmışdır.

Digər gümüş medalı yığmamıza Aslanbek Alborov qazandırmışdır. Finala qədər bütün rəqiblərini mübarizədən kənarlaşdıran təmsilçimiz həlledici görüşdə Rusiya güləşçisi Şamil Əhmədova uduzmuşdur.

Məşqçi Nazim Əlicanovun rəhbərliyi altında turnirə qatılan Namiq Sevdimzadə (55 kq), Qalib Əliyev (60 kq) və Aslan Dzebişov (120 kq) isə mükafatçılar sırasına düşə bilməmişlər. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Rövşən Azadov təmsil etmişdir.

Yeri gəlmişkən, Sarayevoda veteranlar arasında güləş üzrə dünya çempionatında sərbəst güləşçilərin yarışları başa çatmışdır. Bu yarışlarda Azərbaycan idmançıları iki medal qazanmışlar. Mais İbadov (69 kq) finalda rusiyalı rəqibini məğlub edərək birinci yeri tutmuşdur. Mobil Yusifov (63 kq) gümüş mükafatla kifayətlənməli olmuşdur.

# «Tour d'Azerbaidjan 2014» yarışı 2.1 kateqoriyasında keçiriləcək

*«Tour d'Azerbaidjan» yarışlarının yüksək səviyyədə təşkil olunduğunu nəzərə alan Beynəlxalq Velosipedçilər İttifaqı yarışın statusunu yüksəltmişdir.*



Azərbaycan Velosiped İdmanı Federasiyasından bildirmişlər ki, qarşıdakı ildə «Tour d'Azerbaidjan 2014» yarışı 2.1 kateqoriyasında keçiriləcək. Əgər əvvəllər bu turnirdə yalnız kontinental və milli yığma komandalar iştirak edirdisə, bu dəfə mənzərə tamam başqa cür olacaq. Beynəlxalq Velosiped İttifaqının qərarı ilə 2.1 formatında təşkil ediləcək yarışda PRO-kontinental, PRO-komandalar, kontinental və milli komandalar mübarizə aparacaqlar.

Bu yarışın daha bir özəlliyi də ondadır ki, 2014-cü ilin may ayının 7-11-i tarixlərində keçiriləcək «Tour d'Azerbaidjan 2014» çoxgünlük beynəlxalq velosiped yarışı «Tour of Turkey» yarışından dərhal sonra başlayacaq. Bu isə, «Tour of Turkey» velosiped turunda iştirak edən PRO-komandaların daha rahat şəkildə «Tour d'Azerbaidjan 2014» yarışmasında iştirakına imkan verəcək.

Beynəlxalq Velosiped İttifaqının qərarı bir daha Azərbaycanın dünyada artan nüfuzundan, ölkəmizin beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi etməsindən xəbər verir.

# Bədii gimnastika üzrə 20-ci Bakı çempionatı keçiriləcək

*Oktyabrın 10-11-də paytaxtda bədii gimnastika üzrə 20-ci Bakı çempionatı keçiriləcək.*

Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən bildirmişlər ki, çempionatda «Neftçi» və Bakı Gimnastika Məktəbi, Respublika Kompleks İdman Məktəbi və «Spartak», «Sərhədçi» və Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti, Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin gimnastlarından başqa, əvvəldə «Bakı» Peşəkar İdman Klubunun indiki «Baku Flames» adından çıxış edəcək gənc idmançıları da yarışacaqlar. Gimnastlar altı yaş qrupuna bölünəcəklər.

Ümumilikdə 92 gimnastın iştirakı ilə keçiriləcək çempionata seniorka və yuniorlar, həmçinin 2001, 2002, 2003, 2004 və 2005-ci il təvəllüdlü iştirakçılar da qatılacaqlar. İdmançılar yalnız mütləq çoxnövçülükdə medallar uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, Bakı turniri noyabrda İsmayıllı Olimpiya İdman Kompleksində keçiriləcək Azərbaycan çempionatına hazırlıq xarakteri daşıyır.

## mozaika

# Beyin haqqında bilmədiklərimiz

araşdırma

*Hər kəsin nə vaxtsa «Kaş ki olmayaydı» dediyi anlar olub... Bəs bu xatirələri beyindən silə bilərikmi? Bu sual illərlə insanları düşündürüb və çoxlu elmi araşdırmaya səbəb olub...*

Beyin əsas yaddaş və keşdən ibarət olub hər cür informasiyanı qəbul edən və daşıyandır; uyğun olaraq vacib informasiyalar əsas yaddaşda, lazımsızlarsa keşdə toplanır. Məsələn, bir telefon nömrəsi 10 dəqiqə ərzində keşdə saxlanıb sonra itir, yəni bir daha xatırlanmır.

Vacib məlumatlar isə, qeyd etdiyimiz kimi, ana yaddaşda toplanır. Ən sonuncu aldığımız məlumatlar üstdə, ilk öyrəndiklərimiz altda sıralanır və beləcə, «beyin şkafımız» dolmağa başlayır.

***Travmatik hadisələr sosial yaddaşda toplanır***

Yaşadığımız acı xatirələr əsas yaddaşla birgə sosial yaddaşda da saxlanır. Sol prefrontal hissə psixoloji dünyamızın da mərkəzidir. Acı xatirələr eyni vaxtda sosial yaddaşa da toplandığı üçün psixi ruh halımıza və davranışımıza da təsir edir. Buna görə də travmatik hadisələr nəticəsində depressiya, həyəcan və ya digər psixoloji pozuntular ortaya çıxır.



Bəzi hadisələr əsas yaddaşdan silinsə də, sosial yaddaşda qala bilər. Bu zaman insan keçmişindəki o hadisəni unutsa belə, sosial hafizədə qaldığı üçün ona bəzən həmin psixoloji anları yaşada bilər.

***Psixopatlarda sosial hafizə zəifdir***

Ruhi pozuntulu (psixopat) insanlarda sosial yaddaş çox zəif olduğu üçün travmalardan psixoloji zərbələr almırlar. Ona görə də qorxusuz və hissiyyatsızdırlar.

***Ümidsiz sevgi hafizədən silinə bilərmi?***

Məsələyə tibbi cəhətdən yanaşsaq görərik ki, əgər ön frontal tərəfdəki sosial hafizəni silmək mümkün olarsa, travmatik xatirələr artıq acı hisslər yaşatmaz. Hadisə sadəcə bir məlumat kimi yaddaşda qalar və başqa hisslər doğurmaz.

Unutmaq üçün psixoloji təsirləri də sınaqdan keçirmək olar; məsələn, hipnoz, meditasiya və s. Ancaq bu təsirlərin nəticələrinin uğurlu olma faizi şübhə altındadır.

***«Təmiz düşüncənin əbədi parlaqlığı»***

Cim Kerri və Keyt Uinsletin baş rolları oynadıqları «Təmiz düşüncənin əbədi parlaqlığı» filmi tamamilə «bir insanı unutmaq» problemi ətrafında cərəyan edir. Burada tətbiq olunan metoda ən yaxını Transkranial Maqnetik Stimulyasiyadır (TMS). Beynin sol ön hissəsinə edilən bu seans sosial hafizəni silərək insanı psixi rahatladır. Araşdırmaçılar bunun beyinə müdaxilə edilmədən aparıldığını əsaslandıraraq, onu tam zərərsiz hesab edirlər.

# Reklamın görünməyən tərəfləri




*Kulis.az* saytının araşdırmasına görə, gün ərzində reklama dünya üzrə 500 milyard dollar xərclənir. 65 yaşına kimi hər bir insan orta hesabla 2 milyona yaxın reklam çarxı izləyir. Bir uşaq orta hesabla ildə 40 min reklam çarxına baxır. Bu isə günə 100 çarx deməkdir.

- İlk pullu reklam ABŞ-ın «Boston News Letter» qəzetində 1704-cü ildə verilib. Bu, bir mülkün satışı ilə bağlı elan olub.
- İlk standart reklam lövhəsi Amerikada 1900-cü ildə yaradılıb. Məhz o zaman magistralların kənarında bilbordlar yerləşdirmək ideyası yaranıb.
- Tarixdə ən bahalı reklam kampaniyası ABŞ-da 2008-ci ildə keçirilən seçkilərdə olub - 2,6 milyard dollar. Həmin kampaniyada Barak Obama 310 milyon, Con Makkeyn isə 136 milyon dollar xərcləyib.
- Hazırda reklamverənlər arasında ən böyük qrup ərzaq məhsulları istehsalçılarıdır. Müəyyən edilib ki, ABŞ-dakı dərman firmaları tədqiqatlarla müqayisədə reklama daha çox pul xərcləyir.
- İnsanları reklam edilən məhsulun alınmasına həvəsləndirmək üçün onların psixoloji ehtiyacları - seks, qorxu, özünümüdafiə instinkti, ləyaqət hissi, hakimiyyət hərisliyi nəzərə alınır.
- Məhsula şübhə ilə yanaşanları cəlb etmək üçün müasir dövrün reklamlarında məhsul haqda informasiya və faktdan daha çox emosional tərəflərə üstünlük verirlər. 2009-cu ildə «Disney»in bir reklamı qadağan olunub. Reklam posterində qız futbolkada dayanıb və aşağıdan yazılıb: «Köynəyimi çıxart, daha çox görəcəksən...»
- Psixoloqların fikrincə, 8 yaşına qədər uşaqlar reklamlara tənqidi gözlə baxa bilmirlər. Yəni onlar reklam rolikində təqdim edilənləri həqiqi, obyektiv qəbul edirlər.
- Son dövrlərdə ən sürətlə inkişaf edən sahə internet reklamlarıdır. 2000-ci ildə ABŞ-da internet reklamlarına 8,1 milyard dollar xərclənib. Bu il üçün proqnoz 42 milyard dollardır.

# Meşələrimizdə bəbir var

ekologiya



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ümumdünya Təbiəti Mühafizə Fondu ilə birlikdə yay aylarında Hirkan və Həsən Əliyev adına Zəngəzur milli parkları ərazisində keçirdikləri monitorinqlər davam etdirilib, bəbirlərin, onların rəqib növlərinin və qida obyektlərinin populyasiyalarının mühafizə olunan ərazilərdə artıq daimi surətdə inkişafı qeydə alınıb. Hirkan Milli Parkı ərazisində monitorinqin keçirildiyi müddət ərzində bir yetkin erkək bəbirin daim fotokameraların hədəfində olması müşahidə edilib, onun əsas qidasını təşkil edən çöldonuzu, cüyür, tirəndaz və s. növlərin dinamik populyasiya quruluşlarına aid yeni materiallar toplanıb.

ETSN-in mətbuat xidmətindən verilən məlumata görə, Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində yay aylarında iki yetkin dişi bəbir qeydə alınıb, ərazidə bəbirlərin qida mənbəyi sayılan bezoar keçiləri və muflonların yerli populyasiyalarının dinamik inkişafı barədə qiymətli fotoqrafik məlumatlar əldə olunub. Mütəxəssislərin rəyinə görə, mütəmadi olaraq aparılan monitorinqlərin nəticələri Azərbaycan təbiətinin nadir heyvan növlərinin öz areallarına qayıtması prosesinin heç də təsadüfi xarakter daşımadığını deməyə əsas verir və bu, ölkədə son 10 ildə Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərində mühafizə tədbirlərinin kompleks şəkildə gücləndirilməsinin bilavasitə nəticəsidir.

# Uzunsaçlılar kəndi

maraqlı

*Bu kənd dünyanın ən uzunsaçlı sakinləri olan yaşayış yeri kimi Ginnesin «Rekordlar kitabı»na düşüb. Söhbət Çinin Huanqlo kəndindən gedir. Burada qadınların saçının uzunluğu 1,8 metrə çatır. Ən uzunsaçlı qadının isə saçının uzunluğu 2,7 metrdir.*



Bu kənddə saç qadınların ən qiymətli varlığı hesab edilir. Huanqloda qədim adətlər indiyə qədər saxlanılır. Elə buna görə də ora gedən turistlərin sayı ildən-ilə artır. Bu çinli qadınlar həyatlarında yalnız bir dəfə saçlarını kəsə bilirlər. O da 16 yaşında özlərinə ömür-gün yoldaşı axtarışına başlamazdan öncə edilir.

Burada bütün qadınların saç düzümü nimçə şəkillidir. Bu saç formalarının özünəməxsus mənaları var. Məsələn, saç qadının başına sarılıbsa, onun evli, ancaq uşaq sahibi olmadığı aydın olur. Qadınlarda saçın öndən kiçik bir toppuz kimi olması onların həm evli, həm də uşaq sahibi olduğunu bildirir. Saçına baş örtüsü atması qadının subay olmasına və sevgili axtarmasına işarədir.

## Müdriklər deyib ki...

***«Yanıb işıq saça bilmirsənsə, heç olmasa, işığın qabağını kəsmə»***

***Lev Tolstoy (1828-1910)***

